www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 sentybar 2015-ci il Çərşənbə № 193 (6221) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda "VAZ" benzindaşıyan maşına çırpıldı: iki ölü

yazısı səh.14-də

**Gündəm**

### Parlament seçkilərinə inanılmaz beynəlxalq diqqət



ATƏT DTİHB 30 uzunmüddətli, 350 isə qısamüddətli müşahidəçi göndərir; AŞ PA-da seçkilərə dair qərar verdi

yazısı səh.10-da

### Akif Nağı namizəd olacağı dairənin adını açıqladı

yazısı səh.6-da

### Qızılın qiymətinin artması Azərbaycana nə qazandırır...

yazısı səh.13-də

### Raqif Kərimov məhbus oğlu ilə bir dairədən namizəd olmasından danışdı

yazısı səh.6-da

### Kəlbəcər dairəsində şərt söhbəti

yazısı səh.7-də

### PKK-nın 4 milyonluq başları Qarabağda gizlənə bilər?

yazısı səh.8-də

*Ərəstun Oruclu:*

### "Anar Məmmədovun təşkilatını ABŞ bağlayıb"

yazısı səh.7-də

### Məşhurların ölümü- fərqli, əsrarəngiz, səs-küylü...

yazısı səh.15-də

### Seçkilər öncəsi əfv olacağı xəbəri yayılıb

yazısı səh.3-də

### Füzuli Ələkbərovu Cüdo Federasiyandan niyə uzaqlaşdırmırlar?

yazısı səh.12-də

### Razi Nurullayev fəaliyyətə başlayan saytından danışdı

yazısı səh.4-də

### İstintaqçılarımız rus milyarderi dindirmək üçün Moskvaya getdi

yazısı səh.9-da

## Lavrovun səfəri ilə bağlı sensasion iddia

# KREML PARLAMENTİMİZDƏN ÖZÜNƏ "KVOTA" İSTƏYİR

Rusiyanın baş diplomatının Bakıya gəlməmişdən öncə qalmaqallı milyarderin əl-ayağını bağlaması və Abbas Abbasovu fəal siyasətdən silməsi təsadüfi deyil; Qərb müxalifətin Milli Məclisdə təmsilçiliyinə nail olmaq üçün fəallığını artırdığı bir vaxtda şimal qonşumuz seyrçi qalmaq istəmir



yazısı səh.5-də

## 1 sentyabr 1 aprel günü kimi-istefa xəbərləri...

Prezidentin keçirmədiyi müşavirədə Artur Rasizadə "istefaya göndərilərkən" o, Nazirlər Kabinetinin iclasını keçirirmiş, icra başçılarının yeni təyinatları ilə bağlı xəbərlər də gündəmi zəbt edib

yazısı səh.11-də



*Şirməmməd Hüseynov:*

### "Zahid Orucun öz ağlı var, mənim öz ağlım..."

yazısı səh.6-da



### Xədicə İsmayıla 7, 6 ay cəza verildi

yazısı səh.3-də



İsrafil İsrafilov

### "Azdrama" direktoru ilə bağlı qalmaqalı böyüyür

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015

# Beynəlxalq Bank üçün 3 milyard manatlıq borc

Azərbaycanın bank olmayan kredit təşkilatı "Aqrarkredit" 3 milyard manat məbləğində istiqrazların emissiyasına hazırlaşır. Virtualaz.org saytı xəbər verir ki, bu barədə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin saytında məlumat yerləşdirilib.

"Aqrarkreditbank" bu günlərdə prezident İlham Əliyevin imzaladığı fərmanla Azərbaycan Beynəlxalq Bankının problemli kreditlərinin idarə edilməsi üzrə müvəkkil təyin edilib. Beynəlxalq Bankın problemli kreditləri bu maliyyə təşkilatına transfer olunub, bu, bankın özəlləşdirilməsinə hazırlıq tədbirlərindən biridir.

Məlumata əsasən Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi avqustun 26-da "Aqrarkredit"in 3 milyard manqa məbləğində qiymətli kağızlar emissiyası prospektini qeydə alıb.

Emissiya hər biri 1 manatdan olmaqla 3 milyard istiqrazın buraxılmasını nəzərdə tutur. Arayış üçün qeyd edək ki, qiymətli kağızlar emissiyası borclanmanın bir növüdür.

"Aqrarkredit"in bu emissiyanı Beynəlxalq Bankda "sağlamlaşdırıcı tədbirlərin görülməsi üçün" həyata keçirdiyi bildirilir. "Aqrarkredit" 2003-cü ildə lisenziya alıb, onun səhmdarları Maliyyə Nazirliyi, dövlət sığorta şirkəti olan "Azərsığorta" və "Meliorasiya və Su Təsərrüfatı" ASC-dir.




Qeyri-rəsmi məlumatlara görə, Beynəlxalq Bankdan götürülən və qaytarılmayman kreditlərin məbləği 7 milyard manatdan çoxdur.

Vasif Talıbov Naxçıvan MR Ali Məclisinə seçkilərlə bağlı sərəncam verdi

Naxçıvan Muxtar Respublikası (MR) Ali Məclisi sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb.

"Report" xəbər verir ki, sərəncamla Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 2015-ci il noyabrın 1-nə təyin edilib.

Xatırladaq ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə Milli Məclisə seçkilər 2015-ci il noyabrın 1-nə təyin olunub.

"Azər-Türk Bank"a yeni baş direktor təyin olundu

"Azər-Türk Bank" ASC-də daha bir kadr dəyişikliyi baş verib.

Fərid Temraz oğlu Orucov bankın baş direktoru vəzifəsinə təyin olunub (APA). Bundan öncə F.Orucov bankın nağd vəsaitlərlə iş departamentinin direktoru olub.

F.Orucovdan öncə bu vəzifəni Xudayev Afiq Aslan oğlu tutub. Hazırda o, İdarə Heyətinin sədr müavinidir. Bankın digər baş direktoru Hüseynov Rəsul Hüseyn oğludur.

Yeni formalaşan İdarə Heyətinə Adıgözəlov Fərhad Əsgər oğlu rəhbərlik edir.



## İlham Əliyev İslamabada gedəcək

**Azərbaycan prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının sammitində iştirak etmək üçün Pakistana səfər edəcək. Virtualaz.org saytı bu barədə Pakistan diplomatik qaynaqlarına istinadən xəbər verir. Sammit noybarın 11-də İslamabadda keçiriləcək. Bu, təşkilatın Pakistanın ev sahibliyi ilə keçirilən üçüncü sammitidir.**

Diplomatik mənbələr bildiriblər ki, Azərbaycan prezidenti İlham Əliyev sammitə dəvəti qəbul edib.

Həmçinin Səudiyyə kralı Salman, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, İran prezidenti Həsən Ruhani, Misir prezidenti Abdel Fəttah əl-Sisi, İordaniya kralı Abdalla II, Qətər əmiri şeyx Tamim bin Hamad əl-Tani və digər müsəlman ölkələrinin liderləri sammitə qatılacaqlarını təsdiqləyiblər. Habelə BMT Baş katibi Ban Ki Mun sammitə qatılacaq.

## Türkiyənin kürd əsilli yeni naziri "erməni soyqırımı"nı tanıdı


Əli Heydər Qönçə

**Türkiyədə 3 gün əvvəl qurulan yeni hökumətdə Avropa Birliyi üzrə nazir kürdlərin partiyası kimi tanınan HDP təmsilçisi Əli Heydər Qönçə keçirdiyi mətbuat konfransında "erməni qətliamını"nın baş verdiyini dilə gətirib.**

Bizimyol.info Türkiyə mətbuatına istinadən xəbər verir ki, Qönçə "erməni soyqırımı"mövzusunun Avropa Birliyində gündəmə gətiriləcəyi halda hansı mövqe ortaya qoyacağı ilə bağlı suala belə cavab verib: "Bir qətliam baş verdiyi çox açıq və dəqiqdir. Bunu hər kəs qəbul edir. Əsas etibarilə qəbul etməyən yoxdur. Əsas olan onun təsdiqlənməsidir. Onu da partiyada müzakirə etdikdən sonra mövqeyimiz dəqiqləşdirəcəyik".

Nazirin bu açıqlamasını "erməni soyqırımı"nın tanınması kimi qiymətləndirilməsindən sonra bu gün HDP-nin mərkəzi ofisinin qarşısında jurnalistin sualına cavab olaraq, o bildirib ki, 1915-ci ildə baş verənlərin adı "qətliamdır". O, açıqlamasında "soyqırım" ifadəsini işlətmədiyini, 1915-ci ildə öldürülmənin olduğunu və bunun adının da "qətliam" olduğunu bir daha vurğulayıb.

## Bu il 76 nəfəri ilan sancıb



**"May-avqust aylarında ümumilikdə 76 nəfər ilan sancması ilə Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinə daxil olub". Bu haqda modern.az saytına Toksikologiya şöbəsinin müdiri, baş toksikoloq Azər Maqsudov məlumat verib. Şöbə müdiri qeyd edib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu il həşərat və ilan sancmalarının sayında azalma müşahidə edilir:**

"Həşərat və ilan sancmalarına məruz qalanlar müxtəlif yaş qrupundan olanlardır. İlan sancmaları zamanı iki uşaq gürzə ilanın zəhəri ilə zəhərlənib, onlar bir müddət müalicə aldıqdan sonra evlərinə buraxılıb. Əqrəb sancmaları daha çox böyüklər arasında baş verib. Onlar arasında da ölüm halı baş verməyib".

Azər Maqsudov avqust ayında qeydə alınan zəhərlənmələrin də statistikasını açıqlayıb: "Şöbəyə ilan sancması ilə 9 nəfər, əqrəb sancması ilə 6 nəfər, qara qurd sancması ilə 2 nəfər daxil olub. Onlardan dünyasını dəyişən olmayıb".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05


Hicran Hüseynova

## ABŞ səfiri Hicran Hüseynova ilə niyə görüşdü?

**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ilə görüşüb.**

APA-nın xəbərinə görə, bu barədə səfirliyin "Twitter"dəki səhifəsində məlumat verilib.

Görüşdə səfir qadın və uşaq məsələlərinə dair ABŞ-Azərbaycan əməkdaşlığının vacibliyini diqqətə çatdırıb, ABŞ-ın həm Azərbaycanda, həm də dünya miqyasında qadınların siyasət, biznes, ictimaiyyətdə rolunun gücləndirilməsi üçün çalışdığını bildirib.

Səfir həmçinin ABŞ və Azərbaycanın qadın və uşaqlara qarşı zorakılıq hallarının azaldılması sahəsində birgə çalışmasının vacibliyini vurğulayıb. R. Sekutanın sözlərinə görə, ABŞ 2011-ci ildən bəri qadın məsələləri ilə bağlı Azərbaycana 5 milyon dollar ayırıb.

## Naxçıvanda tövlə qadağası



**Naxçıvan Muxtar Respublikasında tövlələrin söküntüsünə başlanılıb. Bu barədə məlumatı musavat.com-a yerli sakinlər veriblər. Məlumata görə, artıq Muxtar Respublikanın bütün rayonlarında tövlələrin söküntüsü sürətlə aparılır. Yol kənarlarında və sakinlərin həyətyanı sahələrindən kənarda olan bütün tövlələr sökülür. Yerli icra orqanlarının nümayəndələri sakinlərə bu vəziyyəti Muxtar Respublikada aparılan abadlıq işlərinin bir hissəsi kimi izah ediblər.**

Artıq Şərur, Ordubad, Şahbuz, Culfa və Sədərəkdə söküntü işləri aparılıb və xeyli sayda tövlə sökülüb. Tövlələri sökülən sakinlərə öz həyətyanı sahələrində yeni tövlə tikmək məsləhət görülüb.

Xatırladaq ki, Naxçıvan ilk dəfə deyil ki, belə ümumi qadağalarla gündəmə gəlir. Bir müddət əvvəl Muxtar Respublikanın rayonlarında təndirlər kütləvi şəkildə sökülmüşdü.

Ondan əvvəl isə kəndlərdə olan kiçik mağazalar da bağlanmışdı.

Bunlar da Muxtar Respublikada aparılan abadlıq və quruculuq işlərinin bir hissəsi kimi həyata keçirilirdi.

## Sərhəddə əməliyyat: qaçaqmalçılar saxlanıldı

**Azərbaycan sərhədçiləri külli miqdarda qaçaqmalın dövlət sərhədindən keçirilməsinin qarşısını alıblar. Dövlət Sərhəd Xidmətinin məlumatında deyilir ki, 23 avqust 2015-ci il tarixdə Ağstafa rayonunun Sadıxlı kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasına gətirilməsi üçün sərhədboyu zolaqda gizlədilmiş 120 qutuda 3000 (üç min) ədəd, 30 avqust 2015-ci il tarixdə isə Ağstafa rayonunun Dəmirtəpə adlanan ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Qazax rayon sakini 1990-cı il təvəllüdlü Zülfüqarov Natiq Nəbi oğluna məxsus yataqda gizlədilmiş 17 ədəd bağlamada 5 adda 4411 (dörd min dörd yüz on bir) ədəd Çin istehsalı olan pirotexniki vasitə aşkar edilərək götürülüb.**

30 avqust 2015-ci il tarixdə Şıxlı buraxılış məntəqəsində Ağcabədi rayon sakini 1970-ci il təvəllüdlü Hüseynov Eldar İmran oğlu Azərbaycan Respublikasında qeydiyyatda olan avtomobilə məxsus texniki pasportla və AZ 99-NF-844 dövlət nömrə nişanını Gürcüstan Respublikasında qeydiyyatda olan "Mersedes-Benz" markalı avtomobilin üzərinə bağlayaraq dövlət sərhədindən keçirərkən saxlanılıb.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.



## Şuşanı işğal edən erməni general öldü

**Ermənistan ordusunun yaradıcılarından biri olan general-polkovnik Qurqen Dalibaltyan ölüb.**

Virtualaz.org erməni saytlarına istinadən bildirir ki, o, 1991-ci ildə SSRİ dağıldıqdan sonra Ermənistan üçün nizami ordu qurulmasında fəal iştirak edib. Qarabağda dinc əhaliyə divan tutmaqda xüsusi ad çıxaran general 1992-ci ildə Arkadi Ter Tadevosyanın rəhbərliyi altında Şuşanın işğal edilməsi ilə nəticələnən "Dağlarda toy" əməliyyatının fəal rəhbərlərindən olub.

Qurqen Dalibaltyan sonradan Ermənistan prezidentinin müşaviri təyin edilib. O, həyatının sonunadək hərbi inspektor vəzifəsini icra edib.

## DİN Ağcabədidəki kredit təşkilatına basqınla bağlı məlumat yaydı

**Daxili İşlər Nazirliyi Ağcabədi şəhərində kredit təşkilatına edilmiş basqınla bağlı məlumat yayıb.**

Nazirliyin saytı bildirir ki, avqustun 31-də saat 04 radələrində Ağcabədi şəhərində "İnkişaf üçün maliyyə" MMC-nin Ağcabədi rayon filialının inzibati binasına pəncərədən girmiş şəhər sakinləri Xəyal Talıbov, Elmir Gülmalıyev və Cəmaləddin Hüseynov oradakı otaqlardan birində olan seyfdən 235 manat, habelə digər otaqda quraşdırılmış "E-manat" ödəmə terminalından 10879 manat oğurlayıb hadisə yerini tərk etməyə çalışıblar. Bu zaman onlar Ağcabədi RPŞ əməkdaşları tərəfindən tutulublar. Araşdırmalar davam etdirilir.

## Ukraynada baş nazirin müavini istefa verdi

**Ukrayna baş nazirinin müavini Valeri Vaşevski istefa verdiyini açıqlayıb. Modern.az Ukrayna KİV-nə istinadən xəbər verir ki, o, bu addımı üzvü olduğu Ukrayna Radikal Partiyasının hakim koalisiyadan ayrılmasından sonra atıb.**

"Bu, "Radikal Partiyası" fraksiyasının yekdil qərarıdır. Hər kəs bu addımı dəstəklədi və bu mənim üçün istefa verdiyim anlamına gəlir".

Bundan öncə Oleq Lyaşkonun başçılıq etdiyi Radikal Partiyası hakim "Pyotr Poroşenko Bloku" ilə koalisiyadan ayrıldıcını elan etmişdi.

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Seçkilər öncəsi əfv olacağı xəbəri yayılıb

## İlqar Məmmədova təzyiqlər, İntiqam Əliyevin səhhətində isə problemlər davam edir

**Avqustun 29-da Avropa Birliyinin Azərbaycandakı səfiri Malena Mard 2 saylı cəzaçəkmə müəssisəsində REAL sədri İlqar Məmmədovla görüşüb. Hərəkatın yaydığı məlumatda bildirilir ki, görüş zamanı siyasi vəziyyət, qarşıdan gələn parlament seçkiləri və Avropa İnsan Haqları Məhkəməsinin qərarlarının icra edilməsi istiqamətində müzakirələr aparılıb.**

Görüş barədə REAL sədrinin vəkili Fuad Ağayev "Yeni Müsavat"a açıqlama verdi. Vəkil bu tərzdə olan istənilən görüşü müsbət qiymətləndirdiklərini qeyd etdi: "Görüşün müsbət olduğunu düşünürəm. Bu, İlqar Məmmədovla Avropa Birliyinin təmsilçilərinin ilk görüşü deyil. Bunu istisna bir hal kimi qiymətləndirməyə çəkinərdim. Görüşdən sonra İlqar bəylə bu barədə söhbətimiz olub. Belə görüşlərə münasibət yalnız müsbət ola bilər. Yerdə qalanlar artıq iqtidarlıqdır".

Vəkil İlqar Məmmədova cəzaçəkmə müəssisəsində olan təzyiqlərin davam etdiyini də söylədi: "Ümumi şəkildə onu deyə bilərəm ki, təzyiqlərin olması məsələsi hələ ki, istisna deyil. Buna təəssüf edirik".

Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin vəkilləri ilə görüşü bərpa edilib. 1 aya yaxın idi ki, hüquq müdafiəçisi vəkilləri ilə görüşə bilmirdi. Sentyabrın 1-də vicdan məhbusu vəkili Fəxrəddin Mehdiyevlə görüşüb. F.Mehdiyev görüşdən sonra musavat.com-a açıqlama verib. O, hüquq müdafiəçisinin səhhətinin daha da ağırlaşdığını qeyd edib: "Karantin müddəti başa çatıb. Səhhətində müəyyən qədər problemlər var. Daha çox qızdırmadan əziyyət çəkir. Görüşə gələndə dərmanlarını özü ilə gətirmişdi. Tez-tez xəstələnir. Kasasiya şikayəti ilə bağlı məsələləri müzakirə etdik. Xəstəliyinə görə müalicə müəssisəsinə köçürülməsi ilə bağlı müraciət edəcəyik. Cəzaçəkmə müəssisəsində kifayət qədər müayinə oluna bilmir. Bizi əsas narahat edən onun səhhətidir. Görüşdə özünün hər hansı bir sözü-filan olmadı. Bildirdi ki, köçürüldüyü müəssisədə problemi yoxdur. Göstərilən münasibət normaldır".



İlqar Məmmədov



İntiqam Əliyev

Bu arada əfv olacağına dair xəbərlər yenidən aktuallaşıb. Belə iddialar səsləndirilir ki, hakimiyyət noyabrın 1-də keçiriləcək parlament seçkiləri öncəsi məhbusların bir qismini azadlığa buraxacaq. Hətta bu ayın sonralarında - Qurban bayramında əfv veriləcəyi xəbərləri dolaşır.

Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bu cür xəbərlərin real olduğuna inanmır. O, hesab edir ki, kiçik istisnalarla deputatların əksəriyyəti Azərbaycanda siyasi məhbusların olmadığını deyirlər: "Hadisələrin hamısını izləyirəm. İlqar Məmmədovla olan görüşdən xəbərim var. Bu görüşə müsbət yanaşıram. Amma əfvlə bağlı onu deyə bilərəm ki, indiyə qədər Ramazan bayramı, Respublika Günü və digər bayramlar olmasına baxmayaraq, belə bir qərar verilmədi. Parlament seçkiləri öncəsi əfv olacağına inamım yoxdur. Son beş ildə iki-üç deputatdan fərqli olaraq, siyasi məhbuslar, həbslərlə bağlı məsələ qaldıran olmadı. Hamısı deyir ki, siyasi məhbus yoxdur. Hesab edirəm ki, seçkilər öncəsi belə bir qərarın verilməsinin heç nəyə təsiri olmayacaq. Əfv Komissiyasının üzvləri dəyişməlidir. Orada ölkədəki proseslərə yaxın insanlar olmalıdır. İctimaiyyətin nümayəndələri orada yoxdur. Komissiyada millət vəkili təmsil olunursa, bunu ictimaiyyət nümayəndəsi hesab etmək olmaz. Haqsız tutulanlar, ədalətsiz hökm alan məhbuslar var. Qurban bayramı öncəsi əfv gözləmirəm. Kaş sözlərim yalan olsun. Gözləyib əfv eşitməməkdənsə, gözləməyib əfv eşitmək daha xoş olardı. Hər bir adamın əfvlə bağlı verdiyi proqnoz məhbus ailələrinin həyəcanına səbəb olur. Onların stress keçirmələrini istəmirəm".

❑ **Cavanşir ABBASLI**

# "AMAY Abdulla" son söz dedi

## "Mən qara qüvvələrin sifarişi ilə təqib olunuram"

**Sentyabrın 1-də Bakı Ağır Cinayətlər Məhkəməsində "AMAY" ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, habelə Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasova barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilir.**



Abdulla Abdullayev

Virtualaz.org xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə A.Abdullayevin vəkili Osman Kazımov çıxış edib.

O.Kazımov bildirib ki, bu cinayət işi onun vəkillik təcrübəsində ən eybəcər işlərdən biridir: "Abdulla Abdullayevin bacısını da zərərçəkən kimi tanıyıblar. Mən Azərbaycan hakimiyyətinə yaxın olan adama torba tikiləcəyini gözləmirdim. Məhkəmədən ədalət umuram, amma gözləmirəm".

Sonra Abdulla Abdullayevin yazılı şəkildə son sözü oxunub: "Mən bəzi qara qüvvələrin sifarişi ilə təqibə məruz qalmışam. 17 aydır həbsdəyəm. Məhkəmədən ədalətli qərar çıxarılacağını gözləmirəm, amma qərar verərkən insani hissləri nəzərə alın".

Bununla da proses sentyabrın 7-dək təxirə salınıb.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir.

Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədir.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y" MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

# Xədicə İsmayıla 7 il 6 ay həbs cəzası verildi

**AzadlıqRadiosunun əməkdaşı, araşdırmaçı jurnalist Xədicə İsmayılın məhkəməsi başa çatıb. Sentyabrın 1-də Bakı Ağır Cinayətlər Məhkəməsində məhkəmə jurnalistə hökm oxuyub. Məhkəmənin hökmü ilə Xədicə İsmayıla 7 il 6 ay həbs cəzası verilib.**



Xədicə İsmayıl

Hökm X.İsmayılın ittiham olunduğu maddələrdən 125-ci maddə istisna olunmaqla, qalan 4 maddə üzrə verilib. 125-ci maddə (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə isə X.İsmayıla bəraət verilib.

# Amerika Xədicə İsmayılı niyə azadlığa buraxdırmır?

## Mehman Əliyev: "Onlar məsələni stabillik çərçivəsində həll etmək istəyirlər"

**ABŞ-ın Georgetown Universitetinin əməkdaşı, Azad Avropa/Azadlıq Radiolarının keçmiş rəhbəri Jeffrey Gedmin və Amerika Sahibkarlıq İnstitutunun (American Enterprise Institute ) araşdırmaçısı Gary Schmitt CNN telekanalının internet saytında jurnalist Xədicə İsmayılovanın həbsi ətrafında yaranan vəziyyəti şərh ediblər.**

Müəlliflərin fikrincə, əgər bütün dünya boyunca məhkum edilmiş jurnalistlərin sayının kəskin artdığı nəzərə alınarsa, indiki zəmanəmizdə bu elə də təzə xəbər kimi görünməyə bilər.

Jurnalistlərin Beynəlxalq Müdafiəsi Komitəsi - CPJ-in məlumatına görə, ötən il bütün dünyada 220 jurnalist həbs edilib və bu, bir il əvvəlkindən 10 faiz artıqdır.

Gedmin və Schmittin fikrincə, neft sərvəti olan Azərbaycanın Rusiya və İran arasında yerləşməsi ABŞ xarici siyasət adamlarını belə bir düşüncəyə gətirib ki, bu ölkənin daxili işləri Birləşmiş Ştatlar üçün prioritet deyildir: "Amerika maraqları Amerika dəyərlərinin üstündən xətt çəkib. Amma bu, belə olmalıdırmı?" - deyə sual edirlər məqalə müəllifləri: "Şübhəsiz elə vaxtlar olur ki, liberal demokratiyalar öz varlıqları naminə, İkinci Dünya Müharibəsi zamanı olduğu kimi şeytanın özü ilə də sazişə girirlər. Britaniya və Amerikanın Stalinlə müttəfiqliyi zərurətdən doğmuşdu".

Bu da xatırladılır ki, bənzər müttəfiqlik Soyuq Müharibə illərində Türkiyə və Cənubi Koreyanın xuntaları ilə də edilib.

"Lakin belə düşüncə, asanlıqla vərdişə çevrilə bilər və xarici siyasəti quranlar sözügedən maraqların Amerika ideallarının görməməzliyə vurulmasına həqiqətən də dəyib-dəymədiyini ölçüb-biçməzlər..." - deyə yazıda qeyd edilir.

Məqalədə vurğulanır ki, bu gün Amerika Birləşmiş Ştatları planet boyunca avtoritar rejimlərlə əlaqələr qurarkən öz maraqlarını və dəyərlərini daha diqqətlə ölçüb-biçməlidir.

Amerika belə edərsə, avtoritarlar da başa düşərlər ki, ABŞ-ın bir marağını o biri marağına qurban verib oynamaq olmaz.

Müəlliflərin fikrincə, Amerika belə edərsə, avtoritarlar da başa düşərlər ki, ABŞ-ın bir marağını o biri marağına qurban verib oynamaq olmaz. Bu həm də çox baha qiymətə demokratiya yolunu seçmiş ölkələri də ruhlandırar, qlobal ictimaiyyət isə Vaşinqtonun simasında riyakarlıq yox, elan edilmiş prinsiplərə sadiqlik görər.

Məqalənin sonunda AzadlıqRadiosunun ABŞ Konqresi tərəfindən maliyyələşdirildiyinə işarə edən müəlliflər yazırlar ki, bu mənada Xədicə İsmayılova Amerika vergiödəyəninin etimadını doğruldub:

"İndi növbə bizimdir ki, ABŞ öz işini görüb onun azad edilməsinə nail olmalıdır".

Bütün hallarda X.İsmayıl həbs olunandan sonra media və siyasət kluarlarında ən çox müzakirə olunan sual budur: niyə Amerika X.İsmayılı azad etdirmir? Danışıqlar yetəri səviyyədə aparılmır, yoxsa X.İsmayıl mövzusu hakimiyyət üçün prinsipialdır?

"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, bu suallar olduqca qəlizdir. Müsahibimizin fikrincə, indiki durumda ABŞ Azərbaycanın daxili işlərinə baxış keçirəndə ilk növbədə ölkə daxilindəki stabilliyə önəm verir: "Onlar burda başqa bir vəziyyətin yaranmasında maraqlı deyillər. Məsələni stabillik çərçivəsində həll etmək istəyirlər. Ciddi təzyiq göstərmədən, danışıqlar yolu ilə. İndiki halda stabillik təqdim olunub. Böhran dövründə yaşayırıq. Bu stabillik güc nazirliklərinin, təbliğatın hesabına olub və ya başqa amillər var, bu, başqa məsələdir. Amma real vəziyyətə baxanda belədir. Xədicə də daxil olmaqla siyasi məhbusların azad olunması danışıqlar çərçivəsində həyata keçiriləcək. Azərbaycan hakimiyyəti də bunu başa düşür. Onlar da artıq ciddi hərəkətlər etmir, təzyiqlər həyata keçirmirlər. Keçən il deyirdim ki, hakimiyyət hansısa addımlar atacaqsa, bu, ilin sonuna qədər olacaq. Əsas amillər odur ki, gözlənilən maliyyə böhranına girdik və artıq hərəkətlər də yoxdur. Həbslər, ciddi basqılar yoxdur. Bu günə qədər nə baş verdisə, baş verdi. Indi isə yavaş-yavaş vəziyyət düzəlməyə doğru gedəcək".

Müsahibimiz hesab edir ki, vəziyyətin düzəlməsinə yönəlik ilk addım heç şübhəsiz ki, siyasi məhbusların azadlığa buraxılması ilə bağlı olacaq. Belə ki, sentyabrın sonundan başlanan prosesin noyabra qədər yekunlaşacağı gözlənilir.

❑ **Sevìnc TELMANQIZI**

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015

**Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində (AzTV) baş verənlər barədə “Yeni Müsavat” qəzeti dəfələrlə yazıb. Xüsusən telekanalın sədri Arif Alışanovla onun müavini, “Həftə” analitik informasiya proqramının aparıcısı İbrahim Məmmədov arasındakı gərginlik, onun təfərrüatları daim müzakirə mövzusudur.**


Arif Alışanov


İbrahim Məmmədov

# AzTV-dəki sədr-müavin çəkişməsinin yeni təfərrüatları

## Telekanal işçilərinin danışdığı “mətbəx” sirləri “Yeni Müsavat”da

Redaksiyamıza telekanalın işçiləri tərəfindən son proseslərlə bağlı yeni məlumatlar daxil olub. Məlumatlara görə, sədrlə onun müavini arasında onsuz da gərgin olan münasibətlərin pik həddi İctimai siyasi proqramlar redaksiyasının artıq sabiq əməkdaşı Ağanisə Sultanovanın prezidentə müraciətindən sonra başlanıb. Məlumatlara görə, bu müraciətdən sonra verilişin bütün əməkdaşları işdən qovulublar, həftənin 7 günü çalışdıqları otaqları əllərindən alınıb.

Əməkdaşların dediyinə görə, uzun müddətdir A.Alışanov AzTV-nin sədr müavini, ictimai siyasi proqramlar baş redaksiyasına rəhbərlik edən İ.Məmmədovu təzyiq altında saxlayır. Bunlardan biri kimi İ.Məmmədovun müəllifi olduğu, Heydər Əliyev və İlham Əliyevdən bəhs olunan sənədli filmlərin gizlədilməsi, əvəzində isə efirə Arif Alışanovun müəllifi olduğu filmlərin verilməsidir. Məlumatlarda o da qeyd olunur ki, hətta bir neçə il öncə İ.Məmmədov Azərbaycanın birinci xanımı Mehriban Əliyeva barəsində sənədli film hazırlayarkən A.Alışanovun göstərişi ilə videotekanın qapıları onun üzünə bağalanıb, kasetlər isə gizlədilib. Son nəticədə isə sözügedən film çətinliklər bahasına hazırlanıb. Belə ki, İ.Məmmədov Heydər Əliyev Fonduna müraciət edərək, onlardan görüntülər verməyi xahiş edib.

AzTV-nin “mətbəx”i barədə daha bir məlumat isə A.Alışanovun İ.Məmmədovun hazırladığı süjetlərlə bağlı verdiyi göstərişlər olub. Telekanalın daxilindən verilən xəbərlərə görə, hər dəfə “Həftə” proqramında İ.Məmmədov İ.Əliyevin çıxışlarını, görüşlərini, səfərlərini şərh edəndə A.Alışanov zəng vuraraq “"yuxarı"dan tapşırıblar ki, şərh verməsin" deyirmiş. Bundan başqa, A.Alışanovun İ.Əliyevin adından “prezident deyir ki, telekanala yeni aparıcılar lazımdır” deməsi də işçilərin yada saldıqlarındandır.

**Telekanal işçilərinin bildirdiyinə görə, İ.Məmmədov başda olmaqla, redaksiyanın kollektivinə hər cür təzyiq göstərilirmiş.** Bir çox hallarda isə işçilərin öz xoşu ilə getməsi üçün onların qonorarı kəsilirmiş. İ.Məmmədov dəfələrlə rəhbərliyə “bu uşaqlar olmasa, mən tək işləyə bilmərəm. Siz mənim filmimin qonorarını yazın, uşaqlara verəcəyəm, aparıb gecikmiş kreditlərini ödəsinlər” deyib. Və onun təklifi də həyata keçib. İşçilərin dediyinə görə, İ.Məmmədov bir neçə dəfə filminin qonorarını öz şöbəsinin əməkdaşları arasında paylayıb. Bundan başqa, İ.Məmmədovun süjet çəkilişini də A.Alışanovla məsləhətləşməsi, onun razılığı olmadan bu cür məsələlərdə müstəqil qərar verməməsi redaksiyamızla əlaqə saxlayan əməkdaşların dediklərində yer alır.

“İbrahim müəllim işdən çıxanda da sədrdən telefonla icazə alırdı”. Bunu telekanalın redaksiyamıza məlumat verən işçisi bildirdi və əlavə etdi ki, sədr müavini daim subardinasiyanı gözləyib. Belə ki, İ.Məmmədov sədr müavini olsa da, həftənin çoxunu öz redaksiyasındakı otağında işləyib. Səhər işə gələndən günün sonuna kimi, verilişlərin planlaşdırılması, müzakirələr, sənədli filmlər, ən vacib hadisələrlə bağlı “Xəbərlər” proqramı üçün də hazırladığı şərhlər, reportajlar - sədr müavininin iş qrafiki bu cür təsvir olunur.

Bu arada İ.Məmmədovun müəllifi və aparıcısı olduğu “Həftə” proqramı, bəzən həftənin beş günü, çox vaxt canlı “Günün nəbzi”, “Əsas məsələ” tok-şousu, sənədli filmlər, “Kənd saatı”, “Keyfiyyət möhürü” kimi verilişlərə də imza atdığı qeyd olunur. Ehtimal edilir ki, telekanalın yaradıcılığında mühüm rol oynayan, getdikcə əsas fiqura çevrilməkdə olan sədr müavini bu səbəbdən qıcıq mənbəyinə çevrilib.

**Bu arada telekanaldakı mənbələrimiz onu da bildirdi ki, İ.Məmmədov avqustun 10-dan məzuniyyətə göndərilib.** Yəni, öz istəyi ilə yox, rəhbərliyin göstərişi ilə. Məzuniyyət dönəmi isə sentyabrın 15-də bitəcək. Sədr müavininə “işə qayıtma” deyilməyib. Çünki sonuncu prezident sərəncamı ilə sədr müavini vəzifəsinə təyin edilib. Amma onunla bağlı A.Alışanov və ətrafının hakimiyyətin yüksək eşalonunda fikir yaratmaq, əks təbliğat aparmaq cəhdləri davam edir. Son qərar hələ verilməsə də, necə deyərlər, “çalışmalar” davam edir.

❑ **Sevinc TELMANQIZI**



# Cavid Hüseynov azadlığı üçün çarpışır

## Onun ev dustaqlığına buraxılması ilə bağlı edilən sayca üçüncü müraciət də rədd edilib

**Jurnalist Rasim Əliyevin ölümünə görə həbs olunan “Qəbələ” futbol klubunun kapitanı Cavid Hüseynovun apelyasiya şikayəti təmin olunmayıb. Bu Cavid Hüseynovun ev dustaqlığına buraxılması ilə bağlı edilən sayca üçüncü müraciət idi.**

C.Hüseynovun vəkili Adəm Məmmədov “Yeni Müsavat” bildirib ki, hüquqlarını müdafiə etdiyi şəxs tam günahsızdır. Vəkilin sözlərinə görə, bunu cinayət işinin materialları, yazışmalar, mesajlar da sübut edir.

Vəkilin sözlərinə görə, digər həbs olunan şəxslər də ifadə veriblər. Onlar C.Hüseynovun günahsız olduğunu bildiriblər.

Cavid Hüseynovun bibisi oğlu Elşən İsmayılov da ifadəsində Cavidin günahsız olduğunu deyib.

A.Məmmədov C.Hüseynovun ev dustaqlığına buraxılması ünün növbəti dəfə müraciət edəcəklərini bildirdi.

Vəkil həmçinin etirazla qarşılanan “...sanki Azərbaycanda tanınmış qələm sahibi qətlə yetirilib” sözlərinə də aydınlıq gətirib. Vəkil fikirlərinin yanlış anlaşıldığını deyərək bildirib ki, Rasim Əliyevin başına gələnlərdən heç kim sığortalanmayıb: “Əlbəttə, onun ölümündən hamı kimi mən də təəssüflənirəm. Jurnalist oldu-olmadı, məşhur oldu-olmadı, ortada insan faktoru, onun ölümü var, bundan təəssüflənməmək olarmı? Biz onun ailəsinin dərdinə şərikik, başqa cür ola da bilməz”.

A.Məmmədov sadəcə Rasim Əliyevin jurnalist fəaliyyəti ilə bağlı deyil, adi məişət zəminində öldürüldüyünü dediyini və məsələnin siyasiləşdirilərək ajiotaj yaradılmasının əleyhinə olduğunu əlavə etdi.

Qeyd edək ki, Cavid Hüseynova Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə 3 ay həbs - qətimkan tədbiri seçilib. C.Hüseynovun bibisi oğlu Elşən İsmayılov və başqa 4 nəfər də jurnalistin ölümünə görə həbs ediliblər.

Jurnalistin ailəsi isə həbs olunanların layiqli cəzasını almasını tələb edirlər. Mərhum jurnalistin anası Teyfurə Əliyeva avqustun 28-də Bakı şəhər prokuroru Əziz Seyidovla görüşüb. T.Əliyeva oğlunu döyənlərlə yanaşı hakimlərin də məsuliyyətsizliyə yol verdiklərini və onların da layiqli cəzalarını almasını istədiklərini bildirib.

❑ **İlkin MURADOV**

# Razi Nurullayev fəaliyyətə başlayan saytından danışdı

## Narazı cəbhənin saytı “cebhe.info” adlanır; yeni AXCP-nin qurultayı nə vaxtdır?


Razi Nurullayev

**AXCP sədrinin sabiq müavini, yeni yaradılan Etimad Qurultayının Təşkilat Komitəsinin sədri Razi Nurullayevin yeni saytı fəaliyyətə başlayıb. “Cebhe.info” adlanan sayta Rəfail Becanov rəhbərlik edəcək. Eyni zamanda, yaxın günlərdə R.Nurullayevin təsisçiliyi ilə “Cümhuriyyət” qəzeti fəaliyyətə başlayacaq. Qəzetin də baş redaktoru R.Becanov olacaq.**

AXCP adına və möhürünə iddialı olan R.Nurullayev yeni saytın əsasən, siyasi istiqamətlərdə fəaliyyət göstərəcəyini bildirdi: “Sayt ciddi şəkildə siyasi istiqamətlərdə fəaliyyət göstərəcək. Əsasən, dövlətçilik ənənəsini oturuşdurmağa çalışacaq. Eyni zamanda, ölkəmizdə siyasi proseslərin aktivləşdirilməsinə də səylər göstəriləcək. Saytın əsas məqsədlərindən biri də, Azərbaycanda Türkiyə modelli siyasətin tətbiq edilməsinə nail olmaq olacaq. Sivil, kübar bir siyasət yaranmalıdır ki, bundan vətəndaşlarımızın hamısı yararlana bilsin. Saytda yeni simalara, siyasətçilərə yer veriləcək. Bu insanlar cəmiyyətə təqdim olunmalıdır. Çünki cəmiyyət çoxdan yeni simaları görmək istəyir. "Cebhe.info"da “AĞ blok”dan olan insanlara xüsusi yer ayrılacaq. Yəqin ki, qəzetdə də bu istiqamətdə müəyyən işlər görülür".

**R.Nurullayev tezliklə fəaliyyətə başlayacaq qəzetdən də söz açdı:** “Yaxın günlərdə "Cümhuriyyət" qəzeti təsisçiliyim altında fəaliyyətə başlayacaq. Anonsu artıq verilməkdədir. “Cümhuriyyət” qəzeti eyni dizaynda, eyni məfkurə ilə oxucuların ixtiyarına veriləcək. Qəzet mənim rəhbərliyimlə olsa da, heç bir müdaxilə etməyəcəm. Mətbuat orqanımız bütün insanlara söz haqqı verəcək. Amma heç bir təhqirə, yoxlanılmamış, şantaj tipli məlumatlara yel verilməyəcək. Kiminsə şəxsi maraqlarına xidmət edən mətbuat orqanı olmayacağıq. Yalnız Azərbaycan xalqının maraqlarına xidmət edəcəyik. Dövlətçiliyimiz öndə olacaq".

R.Nurullayev bu ayın sonu, ya da gələn ayın əvvəli qurultaylarını keçirəcəklərini də qeyd etdi: “Konfranslar üzərində gərgin işləyirik. Güman edirəm ki, bu ay ərzində yekunlaşdıracağıq. Bu ayın sonu, yaxud gələn ayın əvvəli qurultay gözlənilir. Yalnız rayon təşkilatları konfranslarımız qalıb”.

Qeyd edək ki, Nərimanov rayon şöbəsinin daha 2 nəfər üzvü-Quliyev Mikayıl və Mehdiyev Maarif Əli Kərimlinin yürütdüyü siyasətə etiraz olaraq, Razi Nurullayevin sədrlik etdiyi Etimad Qurultayına Hazırlıq üzrə Təşkilat Komitəsinə qoşulduqlarını bəyan ediblər. Bu barədə “Yeni Müsavat”a verilən xəbərə görə, yaydıqları bəyanatda onlar Ə.Kərimlinin partiya daxilində yaratdıqları avtoritarizmə, özbaşınalığa etiraz etdiklərini bildirirlər: “Bundan sonrakı fəaliyyətimizi Razi Nurullayevin rəhbərlik etdiyi əsl AXCP-də həqiqi cəbhəçilərlə çiyin-çiyinə davam etdirəcəyik. Gənc dostlarımıza səslənirik. Ayrılın, əsl cəbhəçilərin yanına gəlin”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015

## Lavrovun səfəri ilə bağlı sensasion iddia

# Kreml parlamentimizdən özünə "kvota" istəyir

**Rusiyanın baş diplomatının Bakıya gəlməmişdən öncə qalmaqallı milyarderin əl-ayağını bağlaması və Abbas Abbasovu fəal siyasətdən silməsi təsadüfi deyil; Qərb müxalifətin Milli Məclisdə təmsilçiliyinə nail olmaq üçün fəallığını artırdığı bir vaxtda şimal qonşumuz seyrçi qalmaq istəmir**

**Qərb institutları və bir sıra aparıcı dövlətlərlə münasibətlərdəki gərginlik şəraitində Rusiyadan Bakıya intensiv səfərlər diqqət mərkəzindədir. Bu mənada bəlkə də Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Azərbaycana 1 sentyabr səfərində qeyri-adi nəsə axtarmağa dəyməzdi. Lakin rusiyalı baş diplomatın səfəri ərəfəsində baş verən və gözlənilən hadisələr bu vizitə ciddi yanaşıb müəyyən təhlillər ortaya qoymağa vadar edir.**



Rəsmi Bakı Lavrovun səfəri haqda detallı məlumat yaymasa da, Rusiya KİV-lərinin məlumatına görə, Lavrov Azərbaycana gəlməzdən öncə Beynəlxalq Əlaqələr üzrə Moskva Dövlət İnstitutunda (MQİMO) ənənəvi çıxış etməliydi. Görüşdən dərhal sonra isə Bakıya uçub. İşçi səfəri zamanı Azərbaycan və Rusiya arasında münasibətlərin ikitərəfli və çoxtərəfli formatının müxtəlif aspektləri, regional məsələlər müzakirə olunacağı, Lavrovun azərbaycanlı həmkarı Elmar Məmmədyarovla görüşəcəyi də bildirilirdi.

**İndi keçək yuxarıda qeyd etdiyimiz məsələyə, yəni rus nazirin Bakı səfəri öncəsi baş verənlərə...**

S.Lavrovun Azərbaycana gəlişindən bir gün öncə rusiyalı iş adamı, neçə müddətdir Azərbaycan qanunlarını pozaraq ailəsi ilə birgə Şuşaya köçən və burada məskunlaşan German Sterliqov Moskvada "Domodedovo" hava limanında saxlanıldı. Sterliqov etiraf edib ki, o 3 saat müddətində sorğu-suala məruz qaldıqdan sonra sərbəst buraxılıb. Ancaq məlumatlara görə, dindirmədən sonra onun Rusiya sərhədlərini tərk etməsi qadağan edilib və bununla da Sterliqovun Şuşadan Bakını təhdid etməsi, erməniləri məmnun edən müxtəlif layihələr həyata keçirməsinə son qoyulmuş olur. Xatırladaq ki, rus milyarderin Qarabağdan çıxarılması Azərbaycan üçün mühüm məsələlərdən idi və bundan öncə barəsində cinayət işi qaldırılan Sterliqovla bağlı İnterpola müraciət edilmişdi. Rusiyaya bundan önceki səfərində də saxlanılan iş adamı sonradan sərbəst buraxılmış və Şuşaya qayıtmışdı. Güman olunur ki, bu dəfə Moskva Azərbaycanı incitməmək üçün Sterliqovun əl-ayağını "buxovlayacaq". Xüsusilə də onun arvadının Cıdır düzündə moda kolleksiyasını nümayiş etdirməsi, özünün isə "eşşək yarışması" təşkil etməsi Azərbaycan ictimai rəyinə çox pis təsir etmişdi və bu layihənin arxasında Rusiyanın dayandığı barədə fikirlər getdikcə çoxalırdı. Hesab edilir ki, Moskva rəsmi Bakını qıcıqlandıran milyarderlə bağlı məsələni bitirmək istəyir.

Milyarderdən söhbət düşmüşkən, Lavrovun səfəri ərəfəsində "Milyarderlər ittifaqı"nın aparıcı simalarından biri, baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun Rusiya Azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyyəti "Azərros"dan istefa verdiyi haqda xəbərlər yayıldı. A.Abbasovun istefa verməsini bəzi siyasi təhlilçilər təsadüfi saymır. Hesab edilir ki, Azərbaycan hakimiyyətinin artıq siyahıdan sildiyi, Bakı ilə körpüləri yandırmış bir şəxsi himayəsində saxlamağın sərfəli olmadığını düşünən Moskva da A.Abbasovla yollarını ayırıb. Yeri gəlmişkən, bu ilin yazında A.Abbasovun "AzerRos" uğrunda mübarizədə necə fəal və iddialı olduğunu xatırlasaq, indi onun "könülü istefası" şübhəli görünür. Odur ki, Lavrovdan öncə Bakıya çatan istefa xəbəri də Rusiya hakimiyyətinin Azərbaycan iqtidarına jesti sayılır.

**Siyasi ekspert Qabil Hüseynli** mətbuata deyib ki, Azərbaycan rəhbərliyi A.Abbasovu geriyə də istəyə bilər: "Çünki o Azərbaycan vətəndaşıdır. Yaxud da Rusiya ilə belə bir razılaşma da ola bilər; Abbas Abbasov Rusiyada bir guşədə sakit oturacaq və siyasi fəaliyyətlə məşğul olmayacaq".

Bəzi müşahidəçilər bu jestlərin qarşılığında Rusiyanın Bakıdan ciddi istəklərinin olduğunu qeyd edirlər. Xüsusilə də Rusiya Müdafiə Nazirliyinin "Zvezda" telekanalının bir müddət öncə yaydığı məlumata diqqət çəkənlər var. Həmin xəbərdə deyilir ki, Rusiya bir neçə il əvvəl tərk etdiyi Qəbələ RLS-in əvəzində Azərbaycanda yeni hərbi baza tikməyə hazırlaşır. Rəsmi Bakının olduqca ehtiyatla yanaşdığı bu məlumatın məhz indi, NATO-nun Gürcüstanda möhkəmlənməyə başladığı bir dövrdə tirajlanmasının arxasında ciddi hədəflərin olduğu iddia olunur. Və belə bir ərəfədə Lavrov Bakıya gəlir...

**Ancaq Rusiya XİN başçısı həm də o ərəfədə Bakıya gəldi ki, artıq Azərbaycanda parlament seçkilərinə start verilib.** Azərbaycanda baş verən istənilən ictimai-siyasi, hərbi, hətta mədəni məsələləri diqqətlə izləyən Rusiya üçün şübhəsiz ki, parlament seçkiləri sıradan hadisə deyil. Rusiyanın Azərbaycanda özəl maraqlarının olması heç kimə sirr deyil və ölkəmiz uğrunda Rusiya daxil, müxtəlif güc mərkəzlərinin mübarizə apardığı da faktdır. Bu mənada Moskva çox istər ki, Azərbaycanın ali qanunverici orqanında ən azı ona münasibətdə loyal yanaşma sərgiləyəcək deputatların sayı çox olsun. Rusiya özünün Azərbaycan planlarını reallaşdırmaq üçün şübhəsiz ki, parlamentin tərkibinə böyük önəm verə bilər.

**Sterliqov və Abbasov mövzusuna toxunan "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu** hesab edir ki, Rusiya əslində bu addımları atmaqla Azərbaycan hakimiyyətinə yox, Azərbaycan ictimai rəyinə reverans edir: "Çalışır ki, Azərbaycan ictimai rəyinə təsir göstərsin. Rusiya başa düşür ki, Azərbaycan ictimai rəyi onun xeyrinə deyil. Odur ki, Azərbaycanı öz təsirini artırmaq ərəfəsində və yaxud Azərbaycanı öz təsir dairəsinə keçirmək istəyəndə ictimai rəylə də hesablaşmaq lazım olacaq. Ona görə müxtəlif üsullarla bu rəyə təsir göstərmək istəyirlər".

**Ekspert "Yeni Müsavat"ın müxbirinə onu da deyib ki, A.Abbasovun "AzerRoss"dan istefa verib-verməməsi də heç nəyi dəyişmir:** "AzerRoss" ümumiyyətlə, heç nəyi həll etmir. Təcrübə göstərdi ki, Azərbaycandan kənarda olan bu və ya digər klubların ölkənin siyasi mühitinə təsiri sıfırdan aşağıdır. Ona görə də bunlar daha çox ictimai rəyə hesablanmış addımlardır. İki hakimiyyət arasında böyük ziddiyyətlər olduğunu düşünmürəm. Əgər Azərbaycan hakimiyyətinin Rusiyadan ciddi təminatları olacaqsa, bütün anlaşmalar əldə olunacaq. O cümlədən, hərbi bazaların yerləşməsi, yaxud Azərbaycanın xarici siyasətində Rusiya faktorunun xüsusi yer tutması".

Ə.Oruclu Rusiya XİN başçısının Bakı səfərinin parlament seçkiləri dövrünə düşməsini təsadüfi saymır. **Ekspert bu vizitin Azərbaycandakı parlament seçkiləri ilə birbaşa bağlı olduğunu düşünür:** "Bu səfərin həm parlament seçkiləri, həm Qarabağ məsələsi, həm Azərbaycan- Rusiya münasibətlərinin fəal inkişaf perspektivləri ilə birbaşa əlaqəsi var. Rusiya maraqlıdır ki, Azərbaycan parlamentində ona loyal çoxluq olsun. Rusiya bunda həmişə maraqlı olub. Rusiya bu status-kvonun saxlanmasında maraqlıdır. Rusiyanın Azərbaycanda geniş dəstəkçi şəbəkəsi var. Rusiya o şəbəkənin üzdə olmasında, ölkədəki ictimai ab-havaya təsirində çox maraqlıdır. Ona görə ki, Moskva təbii ki, reputasiyasını müəyyən qədər ağartmağa çağırır. Ona görə də parlament seçkilərində son dərəcədə maraqlıdır. Mən istisna etmirəm ki, Rusiyanın parlament seçkiləri ilə bağlı açıq fəaliyyətindən başqa, onun hələ gizli fəaliyyəti də var. Bizdə olan məlumata görə, parlament seçkiləri ilə əlaqədar hal-hazırda Rusiyadan müxtəlif şəxsi kanallarla müəyyən maliyyə vəsaitləri də Azərbaycana daxil olmaqdadır".

**İddialardan biri də budur ki, Moskva Azərbaycan parlamentində özünə "kvota" istəyir.** Hesab olunur ki, Qərb özünə yaxın dairələrin Milli Məclisdə təmsilçiliyinə nail olmaq üçün fəallığını artırdığı və hakimiyyətlə danışıqlar apardığı bir vaxtda şimal qonşumuz seyrçi qalmaq istəməyib və özünün baş diplomatını Bakıya göndərib. Hər halda qarşıdakı günlərdə səslənən iddiaların nə dərəcədə doğru olduğunu görəcəyik. Gözləyək...

❑ **"Yeni Müsavat"**

# Rusiya Ukraynada tarana gedir



**Azər RƏŞİDOĞLU**

**Şərqi Ukraynada vəziyyət yenidən gərginləşməkdədir. Rusiya indiyə qədər Ukraynanın şərqində baş verən proseslərdə iştirak etmədiyini iddia edirdi. Atəşkəs elan edilən zaman razılaşmaya imza atmaqla Kreml savaş iştirakçısı olduğunu nümayiş etdirdi. Proseslərin təhlili, Şərqi Ukraynanın rəsmi Kiyevin nəzarətindən çıxacağı ehtimalını artırır. Odur ki, belə bir sual açıq qalır - atəşkəsin pozulması kimə sərf edir? İlk baxışdan, yaranmış vəziyyətdə atəşkəs Ukraynaya bir sıra üstünlüklər verirdi. Atəşkəsin pozulması Ukraynanın şərqində baş verənlərin arxasında məhz Rusiyanın dayandığını sübut etdi. Rusiya açıq formada Şərqi Avropanı şantaj etməkdə davam edir.**

Uzunmüddətli atəşkəs Ukraynaya da sərf etmir. Minsk razılaşması ilə Luqansk, Donetsk, Krım faktiki olaraq rusların işğalında qaldı. Kiyev uzun müddət buna seyrçi qala bilməz.

Onu da vurğulamaq lazım gəlir ki, Rusiya sanksiyalardan yayınmağa, Ukrayna isə ərazi bütövlüyünü təmin etməyə çalışa bilər. Bu baş verərsə, Vaşinqtonun mövqeyi bir qədər də sərtləşə bilər. Görünən budur ki, Rusiya artıq Qərblə açıq qarşıdurmaya başlayıb.

İndi, hər kəsi belə sual maraqlandırır - Moskva belə açıq qarşıdurmaya sona qədər getmək fikrindədirmi? Ruslar nə zamana qədər Qərblə soyuq savaş yaşayacaqlar? Rusiya, bütün iqtisadi və beynəlxalq aləmdə yaranan diplomatik çətinliklərə dözüb bu mübarizədə sona qədər getmək istəyə bilər. Lakin bu, Rusiyanın çöküşünü tezləşdirə bilərdi. Rusiya Qərbin təzyiqinə davam gətirməyərək, geri çəkiləcəksə, onda bu həm də Ukrayna demokratlarının qələbəsi hesab olunacaq. Son nəticədə geri çəkilən Rusiyaya Qərbin təzyiqlərin artması prosesi baş verə bilər. Kreml üçün yaranan vəziyyətdə cəmi iki çıxış yolu qalır - ya savaşı davam etdirmək, ya da Qərb qarşısında "ağ bayraq" qaldırıb, iqtisadi böhrandan qurtulmaq.

Minsk razılaşması Rusiyanın Ukraynada təsir imkanlarını saxlamağa imkan vermirdi. Ona görə də bu razılaşma Rusiya üçün sadəcə növbəti zaman qazanma kimi istifadə olunurdu. Çünki razılaşma olmadığı təqdirdə artıq Avropa Birliyində növbəti sanksiyaların qəbul etməsi reallaşmaq üzrə idi. Rusiya ən azından bunun qarşısını almış oldu. İndi isə Moskva yenidən "hərbi marş" oynayır. Onu da nəzərə almaq lazımdır ki, Rusiyanın Qərbə təsir etmək imkanı çox deyil. Ona görə də Rusiya Qərbi şantaj edir, lakin ona təklif edilən sənədi də imzalayır.

Şərqi Ukraynada hərbi əməliyyatlar yenidən başlamaq üzrədir.

Rusiya nə sülh, nə müharibə taktikası ilə Ukraynada gedən islahatların qarşısını almaq istəyir. Bu isə Poroşenko hakimiyyətinə qarşı narazılıq yaratmaq və əksinqilabı həyata keçirməklə Ukraynanı yenidən öz əhatə dairəsinə qaytarmaq planına uyğundur. Putin hakimiyyətini qoruyub saxlamağın yolunu Ukrayna üzərində qələbədə görür. Ruslar yarı yolda dayanmaq istəmirlər. Hətta müəyyən kompromis mümkün olsa belə, rəsmi Moskva sonuna qədər özünü bölgənin sahibi kimi aparmaq niyyətindədir. Rusiyanın bu prosesdə aktiv iştirakının əsas səbəbi geosiyasi amillərlə bağlıdır. Avropa ilə Asiyanı birləşdirən Ukrayna Moskva üçün Qara dənizdə möhkəmlənmək baxımından əhəmiyyətlidir.

Moskva Kiyevi özünün tərəfdaşına çevirməyə çalışmaqla Qara dənizdə nəzarəti öz əlinə almağa cəhd göstərir. Bir sözlə, Ukraynasız Rusiya Avrasiya Birliyi ideyasını dəfn etmiş olur. Atəşkəsin pozulması da elə bu ideyaya xidmət edir...

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015



# "Zahid Orucun öz ağlı var, mənim öz ağlım..."

## Şirməmməd Hüseynov deputatın dediklərinə cavab verdi

**Professor Şirməmməd Hüseynovun "Hürriyyət" qəzetinə müsahibəsində dediyi bəzi fikirlər ciddi rezonans doğurub. Onun xüsusilə də keçmiş prezident Heydər Əliyev haqqında söylədikləri birmənalı qarşılanmayıb.**

**Ş.Hüseynov belə deyib:** "Heydər Əliyev hakimiyyəti idarə etmək ustası idi. Dövlət yaratmaq yox ha. Bəzən bunu qarışdırırlar. Heydər Əliyev dövlət yaratmayıb, hakimiyyət yaradıb. Dövləti Məhəmməd Əmingil yaratmışdılar. Bu dövlətin adı Azərbaycan Xalq Cümhuriyyəti idi, süqutundan sonra dövlətin adı dəyişərək oldu Azərbaycan Sosialist Respublikası, yəni dövlət qaldı, hakimiyyət dəyişdi". Mövcud iqtidarın illərdir apardığı siyasi kursdan fərqlənən bu yanaşmaya deputat Zahid Oruc müəllif yazısı ilə reaksiya verib. Z.Oruc qeyd edib ki, Şirməmməd Hüseynovun "Rəsulzadə dövlət qurub,Əliyev hakimiyyət" fikrinə kəskin etiraz onun bir vaxtlar Bakıxanovdan ixtibas etdiyi "tarix Allah yazısıdır", fəlsəfəsinə söykənir. "Yəni belə qüsurlu və tam əsassız bir qənaətə qarşı çıxmaq Heydər Əliyevin dövlət qurmadığını iddia edən məlum dairələrlə bizim yaşımız qədər araşdırmalardan sonra eyni hökmü çıxaran Şirməmməd Hüseynovu həmin sırada görmək istəməkdən irəli gəlir"-müəllif yazıb.

**Z.Oruc yazıb:** "Ona görə Şirməmməd Hüseynovun Məmməd Əmin sevgisində bir acıma və tarixi yanğı var: onlar Heydər Əliyevin edə bildiklərini bacarmayıblar. Halbuki tarix və şəxsiyyətlər üz-üzə qoyulmaz. Axı şərt şəkilçisini sevməyən zamanın və keçmiş formasiyaların hər birinin ayrıca özünəməxsusluğunun olduğunu bizə təkcə auditoriyalarda müəllimlər deyil, mürəkkəb həyatın özü öyrədib. Şirməmməd Hüseynovun bu ixtiyar çağında nümayiş etdirdiyi sağlıq və hüzur nə qədər qibtəyə layiqdirsə, onun Məhəmməd Əmin sevgisində bir anti-Heydər Əliyevçiliyin gizləndiyini görmək də bir o qədər naxoşdur..."

**Professor Şirməmməd Hüseynov isə Z.Orucun dedikləri ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bunları bildirdi:** "Zahid Orucun öz ağlı var, mənim öz ağlım. O Zahid Orucdan soruş ki, Məhəmməd Əmin düşmənçiliyini kim yaradıb? O Zahid Orucdan soruş ki, Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycan dövləti var idi, ya yox idi? Azərbaycanın prezidenti var idi, ya yox idi? Elçibəy xalq tərəfindən Azərbaycanın prezidenti seçilmişdi, ya yox? Dövlət olmayan yerdə prezident seçərlər?" **Ş.Hüseynov M.Ə.Rəsulzadə ilə H.Əliyevin qarşı-qarşı qoyulması ilə razılaşmadı və dediyi fikirlərə bir daha aydınlıq gətirdi:** "Ötən əsrin əvvəlinin lideri Məhəmməd Əmindir, Azərbaycan adlı dövləti yaradan şəxs. Əsrin sonunun, indiki hakimiyyətin lideri Heydər Əliyevdir. Dövlətin yox, hakimiyyətin. Çünki dövlət var idi, konstitusiya yazılmışdı və orada göstərilmişdi ki, Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1993-cü ildə də Heydər Əliyev hakimiyyətə gəlib. İndi bizim bayrağımız, gerbimiz, himnimiz Xalq Cümhuriyyətinin deyilmi? Biz Xalq Cümhuriyyətinin varisiyik də. Heydər Əliyev hakimiyyətə gələndə dövlətimiz, gerbimiz, bayrağımız, himnimiz var idi. Bütün bunları başa düşməmək savadsızlıqdır. Lenin Nəriman Nərimanova deyirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti olacaq Azərbaycan Şura Cümhuriyyəti, dövlətiniz qalacaq, hakimiyyət dəyişəcək, fəhlə sinfi hakimiyyəti olacaq. İntəhası bir şey var, sovetlərin dağılmasından və müstəqilliyimizin bərpasından sonra hakimiyyətin forması dəyişdirildi, bunlar prezident respublikası yaratdılar, dövlət başçısı seçildi. Hansı ki, Xalq Cümhuriyyəti zamanında parlament respublikası idi. Gərək bunların savadı ola ki, öyrənələr, adi bir şeyi bilmirlər". **Ş.Hüseynov əlavə etdi ki, tarixi şəxsiyyətləri bir-biri ilə müqayisə etmək həmişə nöqsanlıdır:** "Məhəmməd Əminin də öz yeri var. Heydər Əliyev də Heydər Əliyevdir, görünən dağa bələdçi nəyə lazım? Mən deyirəm ki, bizim min illər boyu dövlətçilik tariximiz var. Cümhuriyyət tariximiz 1918-ci ilin 28 mayından başlayır. Türk və İslam dünyasında ilk cümhuriyyəti biz yaratmışıq, indiki respublikamız isə üçüncü respublikadır. Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Sovet Respublikası və Azərbaycan Respublikası. Zahid Oruc qoy desin, bəzi qəzetlər Məmməd Əmini "ifşa edəndə" hardaydı? Yazırdılar ki, Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın qızıllarını oğurlayıb Türkiyəyə daşıdı. Məhəmməd Əminə böhtan yazılanda Zahid Oruc hardaydı?"

**Ş.Hüseynovun fikirləri və sualları ilə bağlı deputat Zahid Orucun da fikirlərini dərc etməyə hazırıq.**

❑ **E.PAŞASOY**

**Məlum olduğu kimi, Müsavat Partiyası bu ilin noyabrında keçiriləcək parlament seçkilərində namizədlərinin ilkin siyahısını açıqlayıb. 73 iddiaçının adının yer aldığı siyahıda həbsdə olan başqan müavinləri Tofiq Yaqublu, Yadigar Sadıqov və Fərəc Kərimlinin də adları var.**

# "Fərəcin namizədliyi qeydə alınsa..."

## Müsavat Laçından ata və məhbus oğlunun namizədliyini irəli sürüb



Maraqlıdır ki, partiya bəzi dairələrdə iki şəxsin namizədliyini irəli sürüb. Belə dairələrdən biri, 121 saylı Laçın seçki dairəsidir. Burada Müsavatın namizədləri vicdan məhbusu Fərəc Kərimli və atası Raqif Kərimlidir. R.Kərimli faktiki namizəd sayılır. Çünki həbsdə olan bir şəxsin Azərbaycan reallığında namizədliyinin qeydə alınması mümkünsüz görünür. F.Kərimlinin əgər namizədliyi qeydə alınsa, ata və məhbus oğlunun birlikdə, yaxud hansının seçkidə iştirakı maraq doğurur.

**R.Kərimli "Yeni Müsavat"a açıqlamasında ilk olaraq, seçki dairəsindəki ümumi vəziyyətdən söz açdı:** "Respublikada laçınlılar demək olar ki, 60 rayonda məskunlaşıblar. Elə məntəqələr var ki, 50 seçici var. Yalandan məntəqə yaradıblar. Bizim dairə 121 saylı Laçın seçki dairəsidir. 39 min seçicimiz var. Ölkədəki vəziyyətdən hər kəs xəbərdardır. Seçki mühiti yoxdur. Lap hakimiyyət mələk cildinə girib, seçki mühiti yaratmağa çalışsa belə, yenə də mümkün deyil. Çox bərbad vəziyyətdir. Xüsusilə işğal olunmuş rayonlarda seçki mühiti daha pisdir. Əhali dağınıq şəkildə yerləşib. Əhalinin əsas məqsədi çörəkpulu qazanmaqdır. Hazırda xalqı bunla imtahana çəkirlər. Seçkilərdə 1992-ci ildən başlayaraq, daim aktiv iştirak etmişəm. Hakimiyyətin təzyiqləri, əhalinin ələ alınması seçki passivliyinin yaranmasına səbəb olub. Seçkilərin necə olacağını qarşıdan gələn günlər sübut edəcək".

**R.Kərimli oğlunun namizədliyi qeydə alınarsa, verəcəyi qərarı da açıqladı:** "Elə olsa, yəqin ki, iki namizəd olaraq iştirak etməyəcəyik. Fərəcin namizədliyi qeydə alınsa, o zaman mövcud vəziyyətə uyğun hərəkət edəcəyik. Çox güman ki, mən güzəştə gedəcəm. Təkbürlü adam deyiləm. Hər halda, hesab edirəm ki, rayonda bizim ailənin kifayət qədər hörməti var. Hətta alternativ olan YAP-da da düşmənimiz yoxdur. Sadəcə, əqidə söhbəti var. Siyasi mübarizə gedir. Biz sivil mübarizə aparırıq. Bu mübarizənin bir yolu da seçkilərdir. Rayonda kifayət qədər nüfuzum var. Kampaniyaya yavaş-yavaş start veririk. Rayon təşkilatının üzvləri ilə tez-tez görüşürük".

**Müsahibimiz seçki ilə bağlı planlarından da danışdı:** "Mümkün qədər çalışacağıq ki, çətin olsa da, əhalini fəallaşdıraq. Əsas seçiciləri prosesə cəlb etməkdir. Əhalidə uzun müddətdir inamsızlıq yaranıb. Seçicilər deyirlər ki, səs veririk, nəticə başqa cür olur. Bu fikri beyinlərdən çıxarmaq lazımdır. Namizədliyim qeydə alınsa, əhalini seçkilərə cəlb etməyə çalışacam. Ola bilər ki, möcüzə baş versin, seçkilər saxtalaşdırılmasın. Əhalidə bu düşüncəni formalaşdırmaq lazımdır. İnanıram ki, yaxşı olacaq. Hakimiyyət ədalətli seçkiyə getsə, qələbə qazanmaq əzmindəyik. Saxtakarlıq olarsa, sübut edəcəyik. Namizədliyi irəli sürüləndən sonra hələ də Fərəclə danışa bilməmişik".

❑ **Cavanşir ABBASLI**

# Akif Nağı namizəd olacağı dairənin adını açıqladı

## "Heç bir güc qarşımıza qoyduğumuz xətti dəyişə bilməz"

**Bu il noyabrın 1-də keçiriləcək parlament seçkiləri yaxınlaşdıqca, seçkilərdə iştirak edəcək qurumların adı məlum olmağa başlayıb. Qarabağ Azadlıq Təşkilatı (QAT) da millət vəkili seçimlərində iştirakla bağlı qərar verib. Bu barədə qurumun 29 avqustda keçirilən Ali Məclis iclasında qərar qəbul edilib.**



QAT seçkilərdə "Qarabağa azadlıq!" adlı seçki platforması ilə iştirak edəcək. Parlament üzvlüyünə iddiaçıların bu platforma ətrafında birləşdirilməsi qərara alınıb. QAT hesab edir ki, Qarabağ yalnız hərbi yolla işğaldan azad oluna bilər. Ali Məclisdə təşkilatın nəzdində Hərbi Şuranın yaradılması barədə də qərar qəbul olunub.

**QAT sədri Akif Nağı "Yeni Müsavat"a açıqlamasında siyasi təşkilat olmadıqlarını qeyd etdi:** "Ali Məclis toplantımızda bir sıra mühüm siyasi qərarlar qəbul etdik. QAT siyasi qurum deyil. Seçkilərdə iştirakla bağlı artıq qərarımız var. Təşkilat kimi seçkilərdə iştirak edə bilmərik. Amma fərdi qaydada üzvlərimiz iddialarını irəli sürəcəklər. Belə bir qərarımız oldu ki, "Qarabağa azadlıq!" şüarı ilə seçki platforması hazırlayaq. Bu platformada əsas məsələ torpaqlarımızın hərbi yolla işğaldan azad olunmasına tərəfdar olmaqdır. Deputatlığa namizədlərdən kimsə torpaqlarımızın hərbi yolla işğaldan azad olunması tələbini qoyursa, o namizədlər bu platforma ətrafında birləşəcəklər. Bu, sadəcə, Qarabağın hərbi yolla işğaldan azad olunmasının tərəfdarı olan namizədlərin seçki platformasıdır. Müəyyən şəxslər artıq öz qərarlarını bildiriblər. Bakıda və rayonlarda bu platforma ətrafında birləşən namizədlərimiz olacaq. Mənim özüm də həmin şüarın tərəfdarıyam. Fərdi qaydada namizədliyim verləcək. İlk olaraq, keçən dəfə namizəd olduğum 9 saylı Binəqədi seçki dairəsindən yenə də iddiaçı olmaq niyyətindəyəm. O istiqamətdə işlərimiz sürətlə gedir. Bu platforma çərçivəsində işlərimiz hələ davam edəcək. Daxildə dairələrimiz dəyişə bilər. Yəni ilkin olaraq namizədlər müəyyən etmişik. Mənim hələ ki fikrim 9 saylı dairədir".

**Akif Nağı QAT-ın namizədlərinin sayına da toxundu:** "Biz istəmirik ki, QAT öz namizədlərini irəli sürən təşkilat olsun. Seçki proseslərində o şəkildə iştirak etmirik. İrəli sürdüyümüz platformaya təkcə QAT üzvləri qəbul edilməyəcək. Eyni zamanda QAT üzvü olmayanlar o platformanı qəbul etsələr, bu adamlar daxil olunacaq və biz tərəfdən dəstəklənəcək".

**QAT sədri digər siyasi qurumlarla əməkdaşlığın mümkün olduğunu qeyd etdi:** "Təbii ki, bu mümkündür. Ola bilsin ki, hansısa namizəd platformaya qoşulmasın, amma mövqeyimizi dəstəkləsin. Həmin namizədləri də dəstəkləyəcəyik. Ənənəvi mövqeyimiz var. Seçkiqabağı platforma ilə bağlı hər hansı bir qarşıdurma olsa, ənənəvi mövqeyimizə uyğun hərəkət edəcəyik. Heç bir güc qarşımıza qoyduğumuz xətti dəyişə bilməz. Daim xəttimizə uyğun hərəkət edəcəyik. Seçkiqabağı platformamız istiqamətində aksiyalar gözlənilir. İnanmıram ki, seçkilərdə qeydiyyatdan keçməyimizə maneələr yaradılsın. Seçkilərə gediriksə, qalib gəlmək iddiasındayıq. Amma millət vəkili olmaq bizim üçün əsas məqsəd deyil. Seçki kampaniyasında Qarabağla bağlı qəti mövqe sərgiləmək niyyətimiz var".

**A.Nağı QAT-ın namizədlərinin geri çəkilməyəcəyini də bəyan etdi:** "QAT-ın namizədi heç kəsin xeyrinə iddiasını geri çəkə bilməz. Bu bizim cəmiyyətə tutduğumuz mövqe ilə bağlıdır. Mən olduğum, eləcə də namizədlərimiz olan dairələrdə demokratik düşərgə ilə birlikdə əməkdaşlıq etmək olar. Seçkilərin demokratik keçirilməsi istiqamətində. Kim qalib gəlirsə, sadəcə, təbrik etmək lazımdır. Təbii ki, ədalətli şəkildə seçki mühitində. Heç kəs bizdən xahiş edə bilməz ki, namizədliyini geri götür. Onlar əksinə istəsələr, iddialarını geri çəkə bilərlər. Platformamızla bağlı bütün cəmiyyətə müraciət edirəm. Parlament seçkilərində daim müəyyən mövqe sərgiləyirik. Namizəd olan üzvlərimizə daim müraciət edirik ki, platformalarında qalib gələrsə, Qarabağ üçün görəcəkləri işlərə çox yer ayırsınlar. Hətta vahid platforma hazırladığımız zamanlar da olub. Eyni istiqamətdə işimizə davam edirik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT

N 193 (6221) 2 sentyabr 2015



İsgəndər Həmidov



İmamverdi Cəfərov

# Kəlbəcər dairəsində şərt söhbəti

## Sabiq nazir İsgəndər Həmidov İmamverdi Cəfərovun xeyrinə geri çəkiləcəyini deyir, o isə...

**Müsavat Partiyası Məclisinin parlament seçkilərində irəli sürdüyü namizədlər siyahısında keçmiş daxili işlər naziri, Azərbaycan Milli Demokrat Partiyasının sədri İsgəndər Həmidovun adı da yer alıb. İsgəndər Həmidovun namizədliyi 123 saylı Kəlbəcər seçki dairəsindən irəli sürülüb.**

İsgəndər Həmidovun niyə öz partiyasından deyil, Müsavat Partiyasından namizədliyini verməsi müzakirə mövzusuna çevrilib.

**Bu barədə İsgəndər Həmidov musavat.com-a açıqlamasında bildirib ki, namizədliyinin irəli sürülməsi təklifi ona Müsavat Partiyasından gəlib:** "Mənə Müsavat Partiyasından təklif gəldi. Belə ki, partiyanın iclasında 7 partiyanın yığıncağı oldu. Mənim namizədliyim məsələsi müzakirə olunanda mən ümumiyyətlə orada yox idim. Bizim partiyadan 3 nəfərin namizədliyini irəli sürdülər, Səfər Hümbətovla mən birbaşa səsvermə ilə namizəd seçildik. Bizim partiyanın üzvü olan bir nəfər də saxlanıldı ki, seçkiyə qədər kim çox səs toplayarsa onun namizədliyi qalacaq. Mən heç o zaman iclasda deyildim. Yəni birbaşa Müsavat Partiyasından təklif gəldi".

**İ.Həmidov onu da bildirib ki, seçkilərdə sonuna qədər mübarizəni davam etdirməkdə qərarlıdır:** "Mənim namizədliyim 123 saylı Kəlbəcər seçki dairəsindən irəli sürülüb. İmza topladıqdan sonra qeydiyyatdan keçəcəyəm və mübarizə aparacağam. Mənim səsimi oğurlamaq istəyənlər, saxtakarlıq etmək istəyənlər olacaqsa bəri başdan xəbərdarlıq etmək istəyirəm. Mən sona qədər mübarizə aparacağam. Nə qədər qanuni yol varsa, hamısı ilə mübarizə aparacağam. Mətbuat vasitəsilə, xəbər portalları vasitəsilə... Seçkilərlə bağlı həm özümüzü aldadırıq, həm də aldatmaq istəmirik. Əgər demokratik seçki keçirilərsə, kim qələbə çalacaqsa ona uğurlar arzulayacağam. Demokratik seçki keçirilməzsə, mübarizə böyüyəcək. Saxtalaşdırma halları olarsa, biz bunu Avropa məhkəmələrinə kimi çıxaracağıq. Bu dəfə mübarizəni o istiqamətdə aparmayacağıq ki, hakimiyyət seçkini saxtalaşdırıb. Seçki kimin xeyrinə saxtalaşdırılıbsa, həmin adamları məhkəməyə verəcəyik. O oliqarxları yoxlasınlar görək bu pullar haradandır onlarda. Onların mənbələrini açıqlayıb məhkəmələrə verəcəyik.

İnsanlar arasında belə bir fikir yürüdülür ki, namizədliyimi geri götürə bilərəmmi? Mən namizədliyimi bir halda geri götürərəm. Əgər həmyerlim İmamverdi Cəfərov namizədliyini irəli sürsə, məsləhətləşib onun xeyrinə geri götürərəm. Kəlbəcərin işğalı zamanı İmamverdi Cəfərov Xanlar rayon xalq deputatları sovetinin icraiyyə komitəsinin sədri idi. Mən Kəlbəcərin işğal günü öz gözlərimlə onu öz maşınında qaçqınlara çörək daşıyan gördüm, qaçqınları aparıb öz evində yerləşdirən gördüm. Onun əmisi rəhmətlik Təhməz Cəfərov Murov dağından Kəlbəcərə yol çəkmişdi. Həmin yol kəlbəcərlilərin xilası oldu. Yoxsa Kəlbəcərin vəziyyəti Xocalıdan da pis olacaqdı. Odur ki, mən məhz İmamverdi Cəfərovun xeyrinə namizədliyimi geri götürə bilərəm".

Qeyd edək ki, əslən Kəlbəcər rayonundan olan İmamverdi Cəfərov Kəlbəcərin işğalı zamanı Xanlar şəhər xalq deputatları sovetinin icraiyyə komitəsinin sədri işləyib. 2010-cu il parlament seçkilərində 123 saylı Kəlbəcər seçki dairəsindən müstəqil namizəd olub. Hazırda Kəlbəcər Ziyalılar Birliyinin sədri olan İmamverdi Cəfərov 2010-cu il parlament seçkilərində 123 saylı dairədə iki favorit namizəddən biri olub və seçki kampaniyası zamanı tənqidi fikirləri ilə fərqlənib.

**İmamverdi Cəfərovla əlaqə saxlayıb İsgəndər Həmidovun onunla bağlı dediklərinə münasibətini və seçkilərdə iştirak edib-etməyəcəyini öyrəndik. İmamverdi Cəfərov İsgəndər Həmidovun fikirləri ilə mediadan tanış olduğunu bildirdi və keçmişdəki reallıqları unutmadığı üçün sabiq nazirə təşəkkür etdi:** "İsgəndər bəyə keçmişi unutmadığı və qiymətləndirdiyi üçün təşəkkür edirəm. Kəlbəcərlilərin o ağır günlərində mən kənarda dayanıb seyrçi qala bilməzdim.

İsgəndər bəyin də o dövrdə məcburi köçkünlərin yerləşdirilməsində çox böyük köməyi olub. Bunlar hamısı tarixdir və insanların yaddaşında qalır.

Namizədliyimi verib-verməməyimə gəlincə, təxminən bir ay öncə də bildirmişəm ki, mən YAP-ın namizədlər siyahısı açıqlanandan sonra namizədliyimi verib-verməməyim barədə qəti qərarımı elan edəcəyəm. Mən camaatın içərisində çox oluram. Kəlbəcərlilər hazırkı deputat Cavid Qurbanovdan razılıq edirlər. Keçmiş seçkilərdə rəqibim olsa da reallığı dilə gətirmək vicdan məsələsidir. Mən Cavid Qurbanovla seçkidə rəqib olmuşam, bu gün isə ona rəqib kimi yox, bir kəlbəcərli kimi yanaşıram. Reallıq budur ki, bu gün Kəlbəcərin deputatı seçicilərinin problemlərini həll edir, xəstəsi olanlara dəstəyini göstərir. Bunu danmaq düzgün olmazdı. Mənim üçün əsas məsələ deputatlıq deyil. Deputatlar var ki, seçicilərinin heç bir işinə yaramır. İnsaf naminə deməliyəm ki, kəlbəcərlilərin deputatı belələrindən deyil. Kəlbəcərlilər məcburi köçkün həyatı yaşayırlar və problemləri yetərincə var. Bu problemlərə yardım edəcək gücdə olan insanlara üstünlük vermək lazımdır. Mən bu barədə İsgəndər bəylə, keçmiş deputat Ələvsət Ağalarovla da söhbət etmişəm. Onlar da indiki deputatın kəlbəcərlilərə köməyini yüksək qiymətləndirirlər. Hətta xaricdə yaşayan kəlbəcərlilər də bu fikirdədirlər".

❑ **Etibar SEYİDAĞA**

# "Anar Məmmədovun təşkilatını ABŞ bağlayıb"

## Mərkəz rəhbərindən ilginc açıqlama

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu, Anar Məmmədovun yaratmış olduğu və ABŞ-da Azərbaycan hakimiyyəti üçün lobbiçilik edən Azərbaycan-Amerika Alyansı fəaliyyətini dayandırıb. Yayılan məlumatlara görə buna səbəb Məmmədovların düşdüyü çətin maliyyə durumu olub.**



Anar Məmmədov

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu** isə hesab edir ki, əslində səbəb maliyyə ilə bağlı deyil, səbəb başqadır: "Heç bir halda bu qərarı Anar Məmmədov özü təkbaşına verə bilməzdi. Cəmi bir həftə əvvəl Anar Məmmədovun öz adından məlumat yayıldı ki, o, ABŞ-a yollanır və Alyansın fəaliyyətini daha da gücləndirəcək. İndi birdən məlumat yayılır ki, Azərbaycan-Amerika Alyansının fəaliyyəti dayandırılıb. Bu, ABŞ-ın Azərbaycan hakimiyyəti ilə bağlı atdığı addımdır. Azərbaycanda son vaxtlar çoxlu sayda ABŞ təşkilatları bağlanıb, onlar haqqında cinayət işi açılıb. İndi ABŞ qarşılıqlı cavab verir. Bununla demək istəyirlər ki, Azərbaycanın belə addımlarına adekvat cavab verməmək sonsuza qədər davam eləyə bilməz. ABŞ-ın Rusiyaya yaxınlaşan region dövlətləri ilə bağlı konkret addımlar atması dönəmi başlayıb. Azərbaycan-Amerika Alyansı da buna görə bağlanıb. Həmin təşkilatın bağlanması təşəbbüsü böyük ehtimalla Amerika tərəfindən olub. Düşünürəm ki, qarşıdakı dönəmdə biz bu tip addımların davamını görəcəyik. Görünür, artıq Qərb yerinə yetirilməyən, arxasından qaçılan vədlərdən yorulub və qarşılıqlı addımlara keçib".

❑ **E.SEYİDAĞA**

# Rusiya bəxtini Asiyada arayır?



Hüseynbala SƏLİMOV

**Asiya Rusiya üçün heç də təzə məsələ olmasa da, adam V.Putinin necə vurnuxmasına baxanda özünə də məlum olmayan səbəblərdən bir məmnunluq hissi duyur...**

Budur, bu gün Rusiya prezidenti İkinci Dünya müharibəsinin başa çatmasının yetmiş illiyi münasibətilə Pekinə səfər edəcək...

Məsələ təkcə 2-ci Dünya müharibəsi ilə bağlı olsaydı bunu sıradan bir səfər hesab edərdik. Amma V.Putin Asiyada nəsə axtarır. Bu "nəsə"nin nə demək olduğunu bilmək isə o qədər də çətin məsələ deyil - Rusiya Asiyada möhkəmlənməyə cəhd edir...

Əslində "Asiya, yoxsa Avropa?" kimi çoxəsrlik mübahisələr, dilemmalar Rusiyada artıq 300 ildir ki, davam edir. İndi isə zamanın özü hər şeyi yerbəyer etməyə cəhd göstərir - Avropadan qovulan Rusiya nəzərlərini Asiyanın əngincliklərinə, onun hələ tam açılmamış demoqrafik, təbii və geosiyasi resurslarına dikir və əksər müşahidəçilər də bunun heç də səmərəsiz olmadığı qənaətindədirlər...

Əgər hamını təşvişə salan bu son iqtisadi böhranı nəzərə almasaq və iqtisadçıların bu xüsusda dediklərini bircə anlığa unutsaq, Çin dünyanın iqtisadi və maliyyə nəhənglərindən biri hesab edilir. O da maraqlıdır ki, bu ölkə son vaxtlar özünün ikinci dünya müharibəsindəki qələbəyə töhfəsinin yetərincə dəyərləndirmədiyini iddia edir...

Güman edirik ki, V.Putinin Çinə bu günə nəzərdə tutulan səfəri həm də "səmaaltı nəhəng"in bu məsələ ilə bağlı "kaprizlər"ini da aradan götürmək və ona lazımi diqqəti bəxş etmək məqsədi güdür...

Düzdür, indi dünya növbəti məchulluq ərəfəsindədir. İnsanların qayğılarına daha bir qayğı da əlavə olunub - çox adam Çindəki iqtisadi proseslərı izləyir. Əvvəlcə belə deyildi ki, böyük ölkənin böyük iqtisadiyyatı böyük problemlər yaşayır...

Amma sonradan bildirildi ki, bu xəbərlər bir qədər şişirdilib, böhran düşünülən qədər də ciddi deyil. Amma bütün bunlara baxmayaraq indi Çinin iqtisadi durumu televiziya verilişlərinin iqtisadi blokunun əsas hissəsini təşkil edir -bunları bir az əvvəldə qeyd etdiyimizdən bir daha bu məsələlərin üstündə dayanmaq istəməzdik...

Rusiyanın da Çinə və bütövlükdə Asiyaya marağı iki aspektdən doğur. Bunlardan biri mövcud qlobal iqtisadi konyunktura ilə bağlıdır - ikinci soyuq savaş haqdakı xəbərlər bir tərəfə, son vaxtlar hətta ikinci depressiyadan danışmağa başlayıblar. Hələ o da deyilir ki, birinci depressiya bununla müqayisədə lap uşaq oyunu olacaq. Ona görə də hamı, o cümlədən də Rusiya öz iqtisadiyyatı üçün çıxış axtarır...

Digər səbəbsə geosiyasi məzmun kəsb edir. Düzdür, Avropa hələ də böyük iqtisadi nəhəng olaraq qalır. Amma Asiya da son vaxtlar özünü daha çox diqqətə gətirməyə başlayıb. Həm də Asiya təkcə Çin demək deyil, bu, həm də Yaponiya, Koreya və Cənub-Şərqi Asiya ölkələri deməkdir...

Burada həqiqətən də indiyə qədər istifadə olunmamış böyük geosiyasi və geoiqtisadi resurslar var. Avropa ilə fərq ondadır ki, Asiya ölkələri yetərincə təşkil olunmayıb, onların siyasi işbirliyi zəifdir...

Ona görə də zamanı qabaqlamaq istəmirik. Asiya ölkələrinin nə qədər dərin inteqrasiyaya hazır olduğunu hələ deyə bilmərik. Həm də onların geosiyasi və geoiqtisadi maraqlarının, simpatiyalarının fərqinə varmaq istəyirik. Məsələn, Çin ABŞ-la Rusiyanın yaşadığı siyasi və geosiyasi problemləri bölüşmək iqtidarındadırmı? Bu prosesdə Çin hansı ölkəni özünə daha yaxın hesab edir?

Bu suallar cavabını gözləyir. Elə digər suallar da az aktual görünmür. Amma getdikcə bir məsələ daha çox qabarır - bəzi Avropa ölkələri bu xüsusda həlləki tərəddüd etsələr də, Rusiya üçün bu region yadlaşmağa başlayıb...

Sözsüz, Rusiya siyasəti və diplomatiyası bunu biruzə verməməyə çalışır - ona görə ki, heç bir ölkə bazarlarını asanlıqla əldən vermir...

Avropa da Rusiya üçün enerji bazarıdır. ABŞ və Avropa ölkələri bu bazarda Rusiyanın çəkisini nə qədər azaltmağa çalışsalar da, hələki Rusiya oradan çəkilmək niyyətində deyil. Amma siyasi cəhətdən Rusiya Avropadan qovulub - bu ölkənin NATO çərçivəsində fəaliyyəti dondurulub, hətta Avropa Şurası onu mandatdan məhrum edib...

Belə olan halda Rusiya nə edə bilər? O, təbii ki, ikibaşlı qartalın o biri başının göstərdiyi istiqamətə - Asiyaya tərəf üz tutacaq...



# Əlzaman müəllimin Arzuman müəllimin oğlu ilə mücadiləsi

Zamin HACI
zaminhaci@gmail.com

"Yağış hey tökürdü. Ayaqqabılarıma da su keçirdi. Özüm də yamanca islanmışdım. Tir-tir titrəyirdim.
Cavan bir oğlan mənə yaxınlaşdı.
- Bağışlayın, əmican! - dedi.
Mənə elə gəldi ki, o məndən vaxtı soruşacaq.
O isə soruşdu:
- Dünənki futbol oyunundan xəbəriniz varmı? Deyə bilməzsinizmi?"

**(Əziz Nesin, "Uçuruma yuvarlanırıq")**

**Dünən 1 sentyabr idi, o üzdən məktəb yadıma düşdü. Köhnə məktəbləri deyirəm, təzələrdə dərslər 15 sentyabrda başlanır. Yeri gəlmişkən, yapistlərin bütün mənasız, əlləm-qəlləm "islahatları" kimi məktəblərdə dərslərin başlanğıcının 15 sentyabra keçirilməsi də karikatur bir hərəkət idi. Nə iqlim, nə təhsil, nə siyasi, nə ictimai - heç bir baxımdan bunun önəmi yox idi. Bəs o zaman niyə belə elədilər? Bekarçılıqdan. Ad olsun ki, kişinin uşağı iş görür. Sovet lətifəsindəki kimi: yol sökülüb, paravoz işləmir, vaqonlar it günündədir, amma pərdələri yelləmək lazımdır ki, qıraqdan baxan elə bilsin harasa gedirik. Məncə bu axmaq qərarı ləğv edib "Bilik gününü", tədris ilinin başlanmasını yenidən 1 sentyabra qaytarmaq lazımdır. Yoxsa adamlar uşaqlarına 1 sentyabr xatirələrini danışanda çətinlik yaranır, tarix qarışır.**

Bir haşiyə çıxaraq çoxdankı müşahidəmi bölüşmək istərdim. Yapistlərin Azərbaycana düşmənçiliyinin bir əlaməti də belə ənənələri, tarixi məhv eləməkləridir. Ölkədə elə bir məkan qalmayıb ki, onu heç olmazsa iki nəsil davamlı, tərpənməz, dəyişilməz şəkildə görmüş olsun. Tarixdə elə bir hadisə yoxdur ki, onu tərsə-məzhəb yazmasınlar, yozmasınlar. Nəticədə millət qalır çaş-baş, millət ola bilmir. İnsanların millət olmaq arzusu var, yoxdur - bu da ciddi bir sualdır. Yəqin dünyada ancaq bizim xarabada dükan-bazarda "sənə məsləhət deyil" tipli cümlə eşidərsən. Adamlar da buna sərbəst dözür. Mənim almağım üçün pisdirsə, başqalarına niyə satırsan, ay yaramaz?! Başqaları bizim qardaşlarımız, bacılarımız deyilmi? Bax, millət ilk növbədə belə məişət bağlarından yaranır.

1 sentyabr məni təhsil sahəsinə yönəltdi, fikirləşdim, ey dadi-bidad, bu cür olmaz axı: gör neçə aydır məktəb direktorunun xadiməni döyməsi, müəllimin şagirdi budaması, şagirdlərin bir-birinə şıllaq atması tipli xəbərlərdən məhrum olmuşuq. Anladıq, tətildir, amma təhsil prosesi davamlı, arasıkəsilməz olmalıdır, bunu rəhmətlik Misir müəllimin nazirliyi dövründə biz kurrikulum söhbətlərindən də bilirdik.

Hadisə yoxdursa, biz hansı gələcəyə ümid edək? Düzdür, yay aylarında bəzi deputatlar universitetə qəbul zamanı 750 bal toplayan bəzi uşaqları qutladılar, onlarla görüşüb sabun, YAP vəsiqəsi, çapan çalmaq üçün test kitabı, əyilən zaman belin sərpməsini önləyən maz və kremlər bağışladılar. Ancaq bu hadisə deyil, gündəlik tələbat mallarıdır. Biz bundan yaza bilmərik. Jurnalistə hadisə lazımdır. Yeri gəlmişkən, bunu ANS-in şeflərindən Mirşahin müəllim yaxşı düstur şəklində salmışdı. Deyir hadisə o deyil ki, qəzetdə yazasan: "Mirşahin ata oldu". *(Kimsə yazıbmış, hörmətli Mirşahin müəllim də buna əsəbləşmişdi).* Hadisə o imiş ki, yazasan: "Mirşahin ana oldu". Düzü bilmirəm korifey sənətçimiz bunu bacarıb, ya yox, hər halda, hadisənin modeli olaraq çox yaxşıdır, BDU-da keçmək olar.

Belə kədərli, təhsilimizdən naümid düşüncələrlə kompüteri qapamaq istəyirdim ki, bir də gördüm "Cənub xəbərləri" qəzetinin redaktoru Zahir müəllimdən çox yaxşı bir məktub gəlibdir. Gəlin oxuyaq:

"31 iyul 2015-ci il tarixdə Masallı Rayon Məhkəməsinin çıxartdığı hökmdən bəlli olur ki, məktəb direktoru ictimai yerdə dava salıb. Bu olay 20 noyabr 2014-cü ildə Masallı rayonunun Kürdəbaz kəndində *(bu kənd Masallı rayonunun Qarğalıq Ərazi Vahidinə daxildir və Göytəpə-Qızılağac avtomobil yolunun kənarında yerləşir),* gündüz saat 13 radələrində baş verib.

Hadisəni törədənlər Kürdəbaz kənd əsas məktəbinin direktoru Əlzaman Bədirov və həmin məktəbin sabiq direktoru Ərzuman Gözəlovun oğlu Gözəlov Valeh olmuşdur.

Təqsirləndirilən şəxs - Valeh Gözəlov *(sabiq direktorun oğlu)* məhkəmədəki ifadəsində bildirib ki, məktəb direktoru Əlzaman Bədirov günorta vaxtı maşını onların dükanı qarşısında saxlayıb. "Bu vaxt ona dedim ki, Əlzaman müəllim, noyabrın 18-də niyə maşını mənim üstümə sürürdün, az qalmışdı bizi öldürəcəkdin. Əlzaman isə uca səslə qışqıraraq: ..."

Ardı gələn nömrəmizdə. Açığı, belə gözəl məktubu, hadisəni bir yazıda vermək istəmirəm, maraqlı olmaz. Bizi izləyin!

# PKK-nın 4 milyonluq başları Qarabağda gizlənə bilər?

## Sülhəddin Əkbər: "PKK-nın Ermənistanın nəzarəti altında olan işğal olunmuş ərazilərə buraxılıb-buraxılmaması Rusiya hərbi kəşfiyyatının verəcəyi qərara bağlıdır"

**Türkiyə hökuməti terrorla mübarizə çərçivəsində tarixi bir yenilik etmək qərarına gəlib. Bundan sonra terrorla mübarizə çərçivəsində axtarışda olan şəxslərin həbs olunması üçün dövlətə kömək edən şəxsləri pul mükafatı gözləyir. "Sabah" qəzetinin yaydığı xəbərə görə, Qəndildəki PKK və KCK təşkilat liderlərindən birinin ələ keçməsinə kömək edənləri 4 milyon lirəyə qədər mükafat gözləyir.**



Təşkilatın aşağı səviyyəli idarəçilərinin həbs olunmasına köməklik edənlər isə 200 min lirəyə qədər mükafat alacaqlar.

**Hökumətin axtarış siyahısındakı bəzi KCK və PKK liderlərinin adları belədir:**

KCK (Kürdüstan İcmalar Birliyi) İcra Şurasının həmsədri Cəmil Bayık, KCK İcra Şurasının həmsədri Bese Hozat, KCK İcra Şurasının üzvü Murat Karayılan, KCK İcra Şurasının üzvü Duran Kalkan, KCK İcra Şurasının üzvü Əli Heydər Kaytan, KCK İcra Şurasının üzvü Fəhman Hüseyn, KCK İcra Şurasının üzvü Mustafa Karasu, PKK-nın Avropa cavabdehi Səbri Ok, Kongra Gel (Xalq Konqresi) həmsədri Rəmzi Qartal, PKK liderlərindən Nurəddin Dəmirtaş, PKK liderlərindən Bahoz Ərdə.

Bəzi ekspertlər hesab edir ki, bu şəxslərin və digər PKK qruplarının başına pul qoymasından sonra yerlərini dəyişməsi, Türkiyənin əli çatmayan bölgələrə yerləşməsi ehtimalı daha da artıb. Bu fikirdə olanlar onların Azərbaycanın işğal altındakı Qarabağ bölgəsinə adlamaq və ora sığına biləcəyini mümkün sayırlar.

**Məsələn, politoloq Arzu Nağıyevə görə, Qarabağ ərazisində muzdluların vuruşması yeni məsələ deyil:** "PKK-nın da, ermənilərin də eyni mərkəzdən idarə edildiyini nəzərə alsaq, belə faktlar qaçılmazdır. Yəni Türkiyədə vuruşan, terror və təxribatla məşğul olan PKK-çılar asanlıqla Qarabağ ərazisində də ola bilərlər. Lakin onların yalnız kürdlərdən ibarət olmasını düşünmək də düzgün olmazdı. Bu yaxınlarda Türkiyə ordusunun keçirdiyi əməliyyatlar vaxtı ələ keçirilən PKK döyüşçüsü milliyyətcə erməni idi".

**Milli təhlükəsizlik nazirinin sabiq birinci müavini Sülhəddin Əkbər isə hesab edir ki, PKK-çıların Şimali İraqda və İran ərazilərində yerləşmələrdə gizlənə bilərlər:** "Abdulla Öcalanın tutulmamışdan əvvəl hərəkət marşrutuna fikir versəniz görərsiniz ki, necə geniş bir coğrafiyada onlar hərəkət edə bilərlər. Nəzəri cəhətdən Qarabağ ərazisinə də keçə bilərlər. Ancaq buna hələlik onların ehtiyac duyacağını düşünmürəm. Çünki hələ PKK-nın sərbəst fəaliyyət alanı o qədər daraldılmayıb ki, onlar işğal edilmiş Qarabağda yerləşmələri üçün Ermənistana ehtiyac hiss etsinlər".

**S.Əkbər onu da dedi ki, hətta PKK-nın belə bir addıma ehtiyacının yaranacağı halda, razılıq Rusiyadan daha çox asılıdır:** "Çünki hərbi-strateji, təhlükəsizlik baxımından Ermənistan Rusiyanın nəzarətindədir. Ermənistanın sərhədləri də, hava məkanı da Rusiya tərəfindən qorunur. Ona görə də PKK-nın Ermənistanın nəzarəti altında olan işğal olunmuş ərazilərə buraxılıb-buraxılmaması Rusiya hərbi kəşfiyyatının verəcəyi qərara bağlıdır".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanın "qara siyahısı"ndakı üçlük

## Sterliqov Moskvada Azərbaycan əməliyyatçılarını "gözləyərkən" Sərkisyan yenə işğal altındakı ərazilərimizdə sərbəst gəzib-dolaşırdı...

**Rusiyalı milyarder-avantürist, Azərbaycanda barəsində cinayət işi açılmış German Sterliqova, nəhayət, azacıq da olsa, qanunun gücü tətbiq edildi. Doğrudur, Moskvanın Domodedovo aeroportunda saxlandıqdan və sorğu-sual edildikdən sonra o, sərbəst buraxılıb - ancaq ölkəni tərk eləməmək şərtilə. Daha önəmlisi odur ki, azərbaycanlı əməliyyatçılar ondan ifadə almaq üçün dünən Rusiya paytaxtına yollanıblar.**

Erməni separatçıları və onların havadarları üçün bu, əlbəttə ki, xoş xəbər deyil. İş ondadır ki, German Sterliqav Azərbaycana verilməsə də, bu, Bakının, Azərbaycanın aktivinə yazılacaq faktdır.

Həmçinin işğal altındakı torpaqlarımıza rəsmi Bakının razılığı olmadan səfər etmək istəyənlərə yaxşı xəbərdarlıq mesajıdır ki, belə səfərləri qol qoyanlar heç də əbədilik cəzasız qalmayacaqlar; ən azından onların başqa ölkələrə giriş-çıxışları, hərəkətləri, trayektoriyaları izləniləcək, Azərbaycan dövləti onlara əngəllər yaradacaq, kəsəsi, rahat buraxılmayacaqlar.

Belə preventiv addımlar təbiidir, çünki Azərbaycan Dağlıq Qarabağ və ətrafındakı ərazilərin geri qaytarılması üçün təkcə halal haqqı kimi hərbi variantı nəzərdən keçirmir, eyni zamanda qeyri-hərbi *(siyasi, diplomatik)* mübarizə üsullarından da istifadə edir, hüquqi, informasiya müstəvisində mübarizə aparır.

Ola bilsin bu mübarizə hələ arzulanan nəticəni vermir. Amma günün birində situasiya, regional və qlobal şərtlər 180 dərəcə dəyişə və kimsə boş şey kimi görünən "cinayət işləri", "qara siyahılar" anındaca qorxulu dosyelərə çevrilə bilər...

*****

Maraqlıdır ki, Sterliqovun canına vicvicə düşdüyü vaxtda Rusiya xarici işlər naziri Sergey Lavrov Bakıya səfərə getmiş, Ermənistan prezidenti Serj Sərkisyan isə işğal altındakı Dağlıq Qarabağ torpaqlarına, separatçı rejimin növbəti "müstəqillik günü"nü qeyd eləməyə gəlmişdi.

Yada salaq ki, Sərkisyan indiyədək dəfələrlə bu şəkildə Azərbaycanın dövlət sərhədini pozaraq ərazimizdə peyda olub. Bu xüsusda o, XİN-in "qara siyahısı"nda yəqin ki, çoxdan öncül yerlərdədir - sələfi, digər Xocalı caniləri, Azərbaycan təbəələri olan Robert Koçaryan və müdafiə naziri Seyran Ohanyanla birgə.

Deyilə bilər ki, onlar Azərbaycan vətəndaşlarıdır və sərhədi keçməkdə qeyri-adi bir şey yox. Formal olaraq elədir, amma onlar Ermənistan adlı dövlətin başında durduqları, yüksək vəzifə daşıdıqları üçün çoxdan Azərbaycan vətəndaşlığından çıxmış sayılırlar. Hətta bizim vətəndaşlar sayılsalar belə, dövlət sərhədimizi keçməyin prosedurları, qayda-qanunları var və onlar da bu prosedurları və qanunları dəfələrlə pozublar.

Üstəlik, hər üç şəxs Xocalı soyqırımı və digər ağır cinayətlərə görə Azərbaycan qanunları qarşısında cavab verməlidirlər - Azərbaycan vətəndaşı olsalar da, olmasalar da. Bu mənada məntiqlə rəsmi Bakı Sərkisyan, Köçəryan və Ohanyan barədə beynəlxalq axtarış verib onlara da ən azından bəzi hüquqi əngəllər yarada bilər - konkret faktlar ortaya qoymaqla təbii ki.

*****

O da deyilə bilər ki, Sərkisyana Ermənistan prezidenti kimi hansısa hüquqi əngəllər yaradılacağı inandırıcı deyil, Rusiya da Qərb ölkələri bunu ciddi qəbul eləməz, həm də o səbəbə ki, o halda Bakı ilə erməni tərəfdən sülh danışığı aparacaq rəsmi şəxs qalmaz və s. Amma və lakin... o zaman ən azından üç məsələdə üstün görünə bilərik: birinci o məsələdə ki, dünya, Qərb, Rusiya Azərbaycanın öz torpaqlarının itkisi ilə heç vaxt barışmayacağına, haqq işimizə əmin olar.

İkincisi, beynəlxalq birlik Ermənistana hərbi canilərin rəhbərlik elədiyindən nəhayət, duyuq düşər. Üçüncü yandan da sərkisyanlar, ohanyanlar vəzifədə əbədi deyilər. Postlarından gedəndən sonra onların hüquqi təqibi gücləndirilib məntiqi sonluğa çatdırıla da bilər - əlbəttə ki, Bakı israrını davam etdirsə...

❑ **Zahid SƏFƏROĞLU**

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# İstintaqçılarımız Qarabağa köçmüş rus milyarderi dindirmək üçün Moskvaya getdi

## Lavrovun Bakıya səfər etdiyi gün Sərkisyan Xankəndinə gəldi; işğalçı rejim Qarabağda "müstəqillik günü"nü qeyd edir, üstəlik, "seçki" oyununa hazırlaşır

**Avqustun 31-də Moskvada "Domodedovo" hava limanında saxlanılan rusiyalı iş adamı Qerman Sterliqov bir neçə saatdan sonra sərbəst buraxılıb. Rusiya hakimiyyətinə yaxın telekanallardan birinə müsahibə verən Sterliqov 3 saat müddətində sorğu-suala məruz qaldığını etiraf etsə də, istintaq sirri olduğundan detalları açıqlamayıb.**

Azərbaycan və beynəlxalq qanunvericiliyi kobud şəkildə pozaraq ailəsi ilə birlikdə Şuşaya köçən və burada ermənilərin maraqlarına uyğun bir sıra layihələrdə rol alan Sterliqovun saxlanılmasının rəsmi Bakının müraciəti əsasında həyata keçirildiyi barədə məlumatlar var. Düzdür, İnterpol ortada guya siyasi motivlərin olduğunu əsas gətirib iş adamının axtarışını dayandırıb. Lakin fakt budur ki, rusiyalı iş adamı işğal altındakı Azərbaycan ərazilərində məskunlaşaraq burada bir sıra tədbirlər keçirir, üstəlik, Azərbaycanı təhdid edir. Sterliqovun vəkili Artur Ayrapetov bildirib ki, hüquq-mühafizə orqanlarının əməkdaşları ilə söhbətdən sonra iş adamı sərbəst buraxılıb.

Azərbaycanın Baş Prokurorluğu rusiyalı iş adamı German Sterliqovun saxlanılması ilə bağlı məlumat yayıb. Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumatda qeyd olunur ki, "German Sterliqov Şirkətlər Qrupu"nun Direktorlar Şurasının rəhbəri German Sterliqov və onun ailə üzvləri Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan digər şəxslərlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək müvafiq qanunvericiliyin tələblərini kobud surətdə pozmaqla Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda keçərək 2015-ci il 4 iyul tarixində işğal olunmuş ərazilərə daxil olub. (APA). Bundan başqa, qanunsuz rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə 2015-ci il iyulun 13-də Şuşa şəhərində mətbuat konfransı keçirib və özünə məxsus "V Kontakte" sosial şəbəkəsinə aid səhifəsində məlumatlar yerləşdirərək qondarma rejimin "müstəqilliyini" dəstəkləməklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün parçalanmasına, dini və etnik zəmində təfriqəyə, işğal olunmuş ərazilərdə təbii sərvətlərin qanunsuz istismarına, saxta pul vahidlərinin kəsilməsinə və çirkli pulların yuyulmasına yönələn açıq çağırışlar edib, həmçinin qanunsuz biznes fəaliyyəti ilə məşğul olaraq ailə üzvlərini də bu işə sövq edib.

G.Sterliqovun hərəkətlərində dövlət əleyhinə yönələn açıq çağırışlar və dövlət sərhədini qanunsuz olaraq keçmə cinayətlərinin tərkibi olduğundan fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanılıb və o, dövlətlərarası axtarışa elan edilib. 2015-ci il avqust ayının 31-də saat 17 radələrində German Sterliqov İrəvandan Moskvaya gələrkən Rusiyanın hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən "Domodedovo" hava limanında saxlanılıb və gecə saat 01.00 radələrində Rusiya Federasiyasının ərazisini tərk etməmək şərti ilə müvəqqəti olaraq sərbəst buraxılıb.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin təcrübəli əməkdaşlardan ibarət istintaq-əməliyyat qrupu German Sterliqovun yuxarıda göstərilən cinayətlərdə təqsirləndirilən şəxs qismində dindirilməsi üçün Moskva şəhərinə ezam olunub.

Bu mövzu ilə bağlı digər suallarımızla əlaqədar sorğumuza DİN-in mətbuat xidmətindən cavab olaraq bildirildi ki, rəsmi məlumatda göstəriləndən əlavə hər hansı açıqlama verilməyəcək.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bu qənaətdədir ki, G.Sterliqov Azərbaycan qanunlarını kobud şəkildə pozmaqda davam edir:** "Mən inanmıram ki, Moskva bu şəxsi Azərbaycana təhvil versin. Sadəcə, rəsmi Bakı ona nail ola bilər ki, Rusiyanın müvafiq orqanları vətəndaşına anlatsınlar ki, onun Dağlıq Qarabağda yaşaması, həyat yoldaşı ilə birgə işğal altındakı torpaqlarda qeyri-qanuni bizneslə məşğul olması iki ölkə arasındakı münasibətlərə xələl gətirir. Aydındır ki, Sterliqov heç bir neçə ay əvvələ qədər Dağlıq Qarabağın harada yerləşdiyini düz-əməlli bilmirdi, oturmuşdu Rusiyanın kəndlərinin birində, heyvandarlıqla məşğul idi. Rusiyadakı erməni lobbisi erməni vəkilin "məsləhəti" ilə ona Dağlıq Qarabağda yerləşməyi məsləhət görüblər". **Ekspert deyir ki, indi əgər Sterliqov bu səhvini anlayıb geri qayıtsa, problem həllini tapacaq:** "Yox, əgər həbs və dindirilmədən sonra yenə işğal altındakı torpaqlara qayıtsa, bu, vəziyyəti daha da qəlizləşdirəcək. Rusiyanın güc strukturları Sterliqovu həbsdə saxlamayacaqlar. Ancaq həmin güc strukturları Sterliqovu Qarabağa qayıtmağın fəsadları haqqında xəbərdar etməlidirlər".

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Azərbaycana işgüzar səfərə gəldiyi gün Ermənistan prezidenti də Azərbaycanın işğal altındakı ərazilərində peyda olub.

Ermənistan KİV-i xəbər verir ki, Sərkisyan sentyabrın 1-2-də qondarma "Dağlıq Qarabağ Respublikası"nın 24 illiyi münasibətilə təşkil edilən tədbirlərdə iştirak edəcək. Düzdür, Ermənistan rəhbərliyinin bu kimi səfərləri artıq adiləşib. Lakin Qarabağ məsələsinin tənzimlənməsi ilə məşğul olduğunu bəyan edən Rusiyanın birinci diplomatının Bakıda olduğu gün işğalçı ölkənin, həm də Rusiyanın hərbi müttəfiqi olan Ermənistanın prezidentinin Xankəndinə gəlməsi bir tərəfdən Moskvaya arxalanmaqdırsa, digər tərəfdən, Rusiyanın özünə qarşı da sayğısızlıqdır. Güman olunur ki, bu məsələ Lavrovun Bakı görüşlərində diqqətdən kənarda qalmayacaq.

**Elxan Şahinoğlu hesab edir ki, Bakıya səfər edən Rusiya XİN başçısı Sergey Lavrov da bu məsələyə aydınlıq gətirməli, belə halların təkrarlanmayacağına dair Bakıya zəmanət verməlidir:** "Əgər Kreml Azərbaycanı dost dövlət adlandırırsa, buna adekvat addım atmalıdır. Biz hələ onu demirik ki, Kreml erməni işğalçıların girovluğunda saxlanılan vətəndaşını azad etməlidir. Bunlar olmayacaqsa, Lavrovun Bakıya səfərinin heç bir əhəmiyyəti və nəticəsi olmayacaq".



***

İşğalçi Ermənistan sentyabr ayında daha bir özbaşınalığa imza atmağa hazırlıq görür. Belə ki, separatçılar "bələdiyyə seçkiləri" keçirəcəklərini bəyan ediblər. Azərbaycanın Xarici İşlər Nazirliyi isə Ermənistan tərəfindən işğal edilən Dağlıq Qarabağ bölgəsində 13 sentyabrda keçirilməsi planlaşdırılan "özünüidarəetmə orqanlarının" seçkisi barədə bəyanat yayıb. "Qondarma "seçkilər"in keçirilməsi bir daha aydın şəkildə göstərir ki, status-kvonun saxlanılması, işğalçı siyasətinin və ilhaq niyyətlərinin möhkəmləndirilməsi üçün davamlı addımlar ataraq, Ermənistan silahlı münaqişənin siyasi həllində həqiqətən maraqlı deyil və əksinə, olaraq, təxribat və vəziyyəti gərginləşdirmək yolunu tutub" deyə, bəyanatda bildirilir.

**Elxan Şahinoğlunun "Yeni Müsavat"a dediyinə görə, Azərbaycan XİN-nin Dağlıq Qarabağda keçirilən "seçki"yə verdiyi reaksiya yerindədir:** "Biz bu cür hüquq pozuntularına seyrçi qala bilmərik. Beynəlxalq aləm bilməlidir ki, işğal olunan ərazidə seçki keçirmək beynəlxalq hüquqa ziddir. Ona da bilməlidirlər ki, Azərbaycan iki şərtlə yerli seçkilərin lehinədir: birinci şərt odur ki, sülh anlaşması imzalanmalıdır və bölgə idarəetməsinin bütün müddəaları bu sənəddə yer almalıdır. İkinci şərt isə odur ki, sazişin şərtinə görə azərbaycanlılar doğma yerlərinə qayıtmalıdırlar ki, seçkidə iştirak edə bilsinlər. Yoxsa Şuşadan azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirəcəksən, sonra da Şuşanın idarəetməsini Xankəndindən təyin olunan erməniyə tapşıracaqsan? Bütün azərbaycanlılar Dağlıq Qarabağa qayıtdıqdan sonra yerli orqanlara seçki keçirmək olar. Çünki yerli orqanlarda hər iki xalqın nümayəndələri təmsil olunmalıdırlar. İndiki "seçki" isə etnik təmizləmənin nəticəsində irəli gələn təxribatdır. Belə bir seçkini özünə hörmət edən heç bir dövlət qəbul etməz. Bəzən qərbli diplomatlar, o cümlədən həmsədrlər sanki bizə demək istəyirlər ki, "axı separatçı da olsalar əraziləri hansısda yolla idarə etməlidirlər"". **E.Şahinoğlu deyir ki, bu arqument də yersizdir:** "Birincisi, Dağlıq Qarabağ Ermənistanın nəzarəti altındadırsa, burdakı "seçki" formal xarakter daşıyır. Sadəcə, Ermənistan "seçki" adıyla beynəlxalq aləmə nümayiş etdirmək istəyir ki, guya Dağlıq Qarabağda müstəqil idarəetmə var və bütün prosesə həmin idarəetmənin başında dayanan şəxslər başçılıq edirlər. Belə isə bu necə "idarəetmədir" ki, büdcəsini də Ermənistan formalaşdırır, ərazini də Ermənistan hərbçiləri qoruyurlar. Düşünürəm ki, bu dəfə Dağlıq Qarabağdakı "seçkiyə" yalnız XİN bəyanatı ilə kifayətlənmək olmaz. İşğalçı qətiyyətimizi də görməlidir. Azərbaycan ordusu "seçki günü" işğalçıya xəbərdarlıq mesajı göndərməlidir və bu, onların keçirəcəyi hər "seçkidə" təkrarlanmalıdır. Digər tərəfdən, elə həmin "seçki günü" Dağlıq Qarabağ azərbaycanlılarının nümayəndələrindən ibarət qrupun iştirakı ilə Avropa paytaxtlarından birində, ən yaxşısı isə AŞ PA və ya Avropa Parlamenti divarları arasında tədbir keçirməyə ehtiyac var. Tədbirin məqsədi o olmalıdır ki, beynəlxalq aləm Dağlıq Qarabağda azərbaycanlı əhalinin iştirak etmədiyi seçkiyə qiymət verməlidir. Bununla avropalılara bir daha xatırladarıq ki, Dağlıq Qarabağda etnik təmizləmə həyata keçirilib və biz beynəlxalq aləmdən bu təmizləmənin nəticələrinin ortadan qaldırılmasını tələb edərik".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** "Yeni Müsavat"ın sorğusuna cavabında bildirdi ki, istintaq getdiyi üçün prosesə müdaxilə etməyi düzgün saymır.

**Rusiya XİN başçısının Bakı səfərində Sterliqovun Qarabağa qanunsuz səfəri, Qarabağ məsələsinin tənzimlənməsi və digər mövzuların müzakirə predmeti olub-olmayacağına gəldikdə, H.Hacıyev bunları söylədi:** "Lavrovun səfərində ikitərəfli və çoxtərəfli məsələlər, o cümlədən də Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi müzakirə olunacaq. Lavrovun səfəri əldə olunmuş razılıq əsasında həyata keçirilir və işçi xarakter daşıyır". **XİN təmsilçisi sualımıza cavabında Lavrovun Bakıya səfər etdiyi gün S.Sərkisyanın işğal olunmuş ərazilərimizə gəlməsi arasında birbaşa əlaqə görmədiklərini də vurğuladı:** "Sərkisyanın işğal olunan Azərbaycan ərazilərinə səfəri bir daha onun təsbitidir ki, Azərbaycan Respublikası ərazilərinin işğalına görə bilavasitə məsuliyyət daşıyan tərəf Ermənistan Respublikasıdır".

**Diplomat qeyd etdi ki, Qarabağ separatçıları "yerli özünüidarələrə seçkiləri" 13 sentyabr tarixində keçirməyi planlaşdırır. Rəsmi Bakı bu "seçkilər"də "müşahidəçi" kimi iştirak etmək istəyənlərə də xəbərdarlıq etdi:** "Özünü "müşahidəçi" adlandıran şəxslər təbii ki, burada iştirak edə bilər. Lakin müşahidəçilik institutları ikitərəfli və çoxtərəfli əsasda müəyyən edilmiş hüquqi və siyasi mexanizmlər əsasında həyata keçirilir. Ona görə də kimsə bu seçkilərdə müşahidə statusunda iştirak edəcəksə, bu, ancaq özü-özünü "müşahidəçi" adlandırmaqdan başqa bir şey deyil. Bundan əvvəlki hallar, qondarma "seçkilər" də göstərdi ki, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində keçirdiyi bu seçkilər beynəlxalq ictimaiyyət tərəfindən legitim hesab edilməyib və onun nəticələri tanınmayıb".

YENİ MÜSAVAT
N 163 (6221) 2 sentyabr 2015



# Qoduq cıdırıyla acıq vermək

**Samir SARI**

**Bu ermənilər gerçəkdən də qəribə millətdir, acığa düşüb nə desən edirlər. İndi də durub Şuşada, Cıdır düzündə qoduq yarışması təşkil ediblər.**

Əvvəllər onlar bunu Xankəndinin yaxınlığındakı Vəng kəndində edərdilər, indi məkan dəyişdiriblər.

Şəkillərdən görünür ki, onlar builki ulaq cıdırının daha təntənəli təşkil olunmasına çalışıblar. Sanasan, mundial keçirirlər, beynəlxalq yarış təşkil edirlər. Yox bir qoduq olimpiadası...

Yekə-yekə bığlı-saqqallı kişilərdir, hərəsi özləri ağırlıqda bir qoduğa minib ötüşürlər. Finişi birinci keçənin ödülü nədir, görəsən, uduş fondu nə qədərdir ki, bunlar belə ciddi-cəhdlə ötüşürlər?

Heç bizdə olimpiyaçı süvarilərimiz yarışlara o qədər həvəslə qatılmırlar ki, ermənilər qoduq cıdırlarına elə həvəslə hazırlaşır, uzunqulaqlarının belində vüqarla oturaraq yarış meydanına daxil olurlar.

Baxarsınız, gün gələcək, onlar bu yarışı beynəlxalq miqyaslı birincilik etməyə çalışacaqlar, qonşu dövlətlərdən qoduq jokeyləri dəvət edəcəklər. Bir də görəcəyik, budu ha, qonşumuz İranın Həmədan şəhərindən idmançılar öz cins ulaqlarları ilə yarışa qatılıblar. Kutaisidən gürcülər, Süxumidən abxazlar, Sxinvalidən osetinlər də gəldimi, al sana beynəlxalq ulaq yarışı...

Hətta iş bununla da bitməyəcək, ermənilərin bu layihəsi bir qədər uğur qazansa, tələb edəcəklər ki, ulaq yarışları Yay Olimpiya Oyunlarının tərkibinə də daxil edilsin. Fransa, Rusiya kimi dövlətlərin olimpiya komitələri ideyanı dəstəkləyəcəklər, bir də görəcəyik, bay, məsələ dünya miqyasında müzakirə olunur.

Onu da deyək ki, Qarabağ ermənilərinin eşşək sevdasının qədim ənənələri var. Biz bu tərəfdə Qarabağ atları ilə fəxr etdiyimiz vaxt, onlar da Qarabağ eşşəyinin şöhrətini yayırdılar. Bizimkilər Ağdamda at zavodu yaradanda, onlar da Vəngdə qeyri-rəsmi olaraq eşşək zavodu təsis etmişdilər və saf qanlı eşşək cinsi yaradırdılar.

Biz öz atımızla bir tərəfə çıxa bilmədik, süvarilərimiz beynəlxalq yarışmalarda uğur qazana bilmirlər, nəticədə at belində doğulan göy türklərin züryəti olduğumuz şübhə altına düşür.

Amma, gördüyünüz kimi, ermənilər öz qoduqlarını gətirib başa keçiriblər.

İki-üç gündür ki, milli patriotlarımız Cıdır düzündə keçirilən qoduq yarışmasına görə xeyli üzgün və qəzəblidirlər, deyirlər, ey gidi dünya, gör nə qədər mağmınıq, erməni Cıdır düzündə "toş-toş" deyə eşşək oynadır, finişə çatıb "toqquş" deyirlər, biz də qalmışıq baxa-baxa, yana-yana.

Biz gərək belə şeyləri ürəyimizə salmayaq. Zatən, ermənilər bu yarışları bizə yanıq vermək, bizi acıqlandırmaq üçün edirlər. Bundan bir neçə gün əvvəl Cıdır düzündə moda yarışması keçirmişdilər. Rus milyarder Sterliqovun arvadı bir dəstə axçi ilə Cıdır düzündə fotoqraflara poza vermişdi. (Yeri gəlmişkən, Sterliqovun özü Qarabağa gələndə ulaq minir - Qarabağ ermənilərinə hörmət əlaməti olaraq). Yenə də məqsəd bizim əsəblərimizlə oynamaq idi.

Hələ bu məsələ qoduq ötüşdürməklə bitməyəcək. Bir-iki həftədən sonra Cıdır düzündə dombalaqaşma yarışları, dolmabişirmə birinciliyi, "Sarıgəlin"oxuma festivalı, qar yağanda qartopu oynama, qardanadamdüzəltmə turnirləri də təşkil edə bilərlər. Nələri olmasa da, fantaziyaları genişdir.

8-9 il öncə İspaniyada təhsil alan yazıçı Nərmin Kamal yazmışdı ki, o ölkədə təxminən 550-dən artıq festival, bayram (öküzün qabağına düşüb qaçmaqdan tutmuş ta bir-birini al pomidor şirəsinə bulaq etməyə qədər) var və elə gün olur, bəzi bölgələrdə üst-üstə iki festival keçirilir və bayramsevər ispanlar kef eləyir. Amma təsəvvür edin ki, ispanlar bu qədər bayram icad etdikləri halda qoduq cıdırı təşkil etməyi unudublar. Hərçənd bilmək olmaz, bəlkə bu yarış da hardasa Kataloniya tərəflərdə icad olunub, ermənilər onlardan çırpışdırıblar.

İndilikdə yalnız onu arzu etmək olar ki, bizim idman təsərrüfatının başbilənləri sırf ermənilərin acığına ulaqçılıq federasiyası yaratmasınlar. Son illər ermənilərlə bəhsləşməyə bir canıq axı. Qoy öz qoduqlarını minib rədd olsunlar...

---

**Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 1 noyabr 2015-ci ildə Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar seçici siyahılarının dəqiqləşdirilməsi istiqamətində işlər davam edir.**





# Parlament seçkilərinə inanılmaz beynəlxalq diqqət

## ATƏT DTİHB 30 uzunmüddətli müşahidəçi, 350 qısamüddətli müşahidəçi göndərir; AŞ PA da seçkilərə dair qərar verdi

Məntəqə seçki komissiyaları seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahılarını sentyabrın 27-dək təqdim etməlidir. Bu müddətdən sonra səsvermə gününədək *(səsvermə günü də daxil olmaqla)* seçici siyahısına seçici Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada yalnız məntəqə seçki komissiyası tərəfindən əlavə edilə bilər. Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən qaydada təsdiq edildikdən sonra seçici siyahıları Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdiriləcək.

MSK isə noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni, forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələyə baxıb. Qeyd edək ki, bildirişdə seçicinin adı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, həmçinin səsvermə qaydaları ətraflı şəkildə əks olunur. MSK katibliyinin media və ictimai əlaqələr şöbəsindən verilən xəbərə görə, komissiya üzvlərinin müzakirəsindən sonra səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 5250000 (beş milyon iki yüz əlli min) bildirişin mətbəə üsulu ilə hazırlanması qərara alınıb.

Dünən isə məlum olub ki, ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosu Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidə missiyası göndərmək barədə qərar qəbul edib.

APA-nın ATƏT-ə istinadən verdiyi məlumata görə, müşahidə missiyası Azərbaycanın 1 noyabr tarixində keçiriləcək seçkiləri müşahidə etməklə bağlı rəsmi dəvətinə və 12-14 avqust tarixlərində Azərbaycanda olan ehtiyacların qiymətləndirilməsi missiyasının səfərinin yekunları və araşdırmalarına əsasən göndərilir. Bunun üçün 15 proqramlı vəzifə üçün yer ayrılıb və onlar fəaliyyətlərinə 14 sentyabrdan başlayacaqlar. İnzibati vəzifələr üçün 14 yer ayrılıb və onların vəzifələrinin başlama tarixi 5 sentyabrdır. Daha 16 vəzifə isə regionlardakı ofislərə ayrılıb və onlar 22 sentyabr tarixindən işə başlayacaqlar. ATƏT DTİHB bu vəzifələrin tutulması ilə bağlı vakansiya elan edib. Qurum noyabrın 1-də keçiriləcək seçki prosesini izləmək üçün 30 uzunmüddətli müşahidəçi, 350 qısamüddətli müşahidəçi göndərəcək. Qısamüddətli müşahidəçilər seçki gününü, seçki prosesini, səsverməni, səslərin sayılmasını izləyəcəklər.

Avqustun 31-də isə Avropa Şurası Parlament Assambleyasının Büro iclasında noyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidəçi missiyasının göndərilməsinə dair qərar qəbul edilib. Müşahidə missiyasına 13 deputat daxil ediləcək.

Qeyd edək ki, bir müddət öncə bəzi beynəlxalq təşkilatlar parlament seçkilərinə müşahidə missiyası göndərməyəcəklərini bəyan etmişdilər. Məsələn, Avropa Parlamenti Bakı ilə münasibətlərinin soyuqlaşmasından sonra belə bir mövqeni bəyan edib.

İndi isə belə görünür ki, beynəlxalq təşkilatlar getdikcə mövqelərində dəyişiklik etməyə başlayıblar, Azərbaycandakı seçkiləri daha ciddi şəkildə müşahidə etmək, nəzarətə götürmək xətti tutublar.

**"Beynəlxalq təşkilatların seçkini müşahidə eləməsi, yoxsa hakimiyyətlə münasibətlərin pisləşməsi səbəbindən müşahidəçilikdən imtina etmələri demokratiyanın xeyrinədir" sualı ilə müraciət etdiyimiz Müsavat Partiyasının başqanı Arif Hacılı bildirib ki, beynəlxalq qurumların, o cümlədən dünya birliyi dövlətlərinin Azərbaycanda demokratiyanın inkişafı istiqamətində fəaliyyətini durdurması Azərbaycanın maraqlarına uyğun deyil:** "Nümunə üçün ABŞ-ın Azərbaycanda fəaliyyət göstərən iki institutunun Azərbaycandan çıxarılması məsələsini diqqətə çatdırmaq istəyirəm. Biz burada həm Beynəlxalq Respublikaçılar İnstitutunun, eyni zamanda Beynəlxalq Demokratlar İnstitutunun fəaliyyətindən tam şəkildə razı deyildik. Ancaq müəyyən fəallıq var idi, siyasi partiyalar arasında müzakirələrin aparılması, seçki kampaniyası dövründə müəyyən tədbirlər həyata keçirilməsi, hər halda, ölkədə az da olsa demokratiya cücərtilərinin yaranmasına xidmət edirdi. Hazırda həmin institutlar Azərbaycanı tərk edib və hesab etmirəm ki, bununla Azərbaycanda demokratiyanın vəziyyəti daha da yaxşılaşıb. Eləcə də beynəlxalq qurumlar seçkiləri müşahidə etməsə, beynəlxalq müşahidəçilər gəlməsə, seçki prosesi diqqət mərkəzində saxlanmasa, hesab etmirəm ki, bu, avtomatik olaraq Azərbaycanda vəziyyətin dəyişməsi ilə nəticələnəcək".

❑ **Etibar SEYİDAĞA**

---

# NİDA parlament seçkilərinə 4 namizədlə qatılacaq

## Turqut Qəmbər: "Düşündük ki, kim haradan istəyirsə, öz namizədliyini irəli sürsün"

**Sentyabrın 1-də NİDA Vətəndaş Hərəkatı Müsavat Partiyasının qərargahında parlament seçkiləri ilə bağlı mətbuat konfransı keçirib. Konfransda hərəkat üzvləri parlament seçkilərində iştirak etmək üçün öz namizədlərini müəyyənləşdiriblər.**

**Hərəkatın üzvü Turqut Qəmbərin** "Yeni Müsavat" qəzetinə verdiyi açıqlamaya görə, NİDA bu günlər ərzində keçirilən müzakirələr sonrası 4 namizədini müəyyən edib: "Hazırda bizim dörd namizədimiz var. Onlar 9-cu dairədən Ülvi Həsənli, 18-ci dairədən Ramin Hüseynov, 29-cu dairədən Elgiz Qəhrəman və 106-cı dairədən Nicat Əmiraslanov olacaq. Biz seçkilərdə müstəqil şəkildə iştirak etmək fikrindəyik. Ancaq buna baxmayaraq, həm Müsavat Partiyası, həm REAL hərəkatı ilə əlaqələrimiz var. Müşahidəçilik məsələsində onlarla əməkdaşlığımız olacaq".

**T.Qəmbər hərəkatın vahid namizədlə seçkilərə qatılmaq istəyindən vaz keçməsinin səbəblərini də açıqlayıb:** "Bu fikir üzərində dayanmadıq. Çünki bizdə 2010-cu ilin nümunəsi var ki, burada hakimiyyət bir çox müxalif namizədin qeydiyyata alınmadığının şahidi olmuşuq. Bu baxımdan düşündük ki, kim haradan istəyirsə, öz namizədliyini irəli sürsün. Əsas məqsədimiz qeydiyyatdan keçməkdir. Ola bilər ki, seçkilərə vahid namizədlə qatılardıq və həmin şəxsi qeydə almazdılar. Bu səbəbdən biz bir neçə namizədlə seçkilərdə iştirak etmək qərarına gəldik".



**Turqut Qəmbər hərəkatın namizədlərinin sayında dəyişikliklər olacağını da bildirib:** "Ola bilər ki, yaxın günlərdə bizim namizədlik siyahımız genişlənsin. Belə olduğu təqdirdə mətbuata məlumat verəcəyik".

Xatırladaq ki, avqustun 26-da Müsavat Partiyasının mərkəzi qərargahında Müsavat Partiyası, REAL və NİDA Vətəndaş Hərəkatı təmsilçilərinin görüşü keçirilib. Üçlüyün bu görüşdə əsas məqsədi parlament seçkiləri ilə əlaqədar Müsavat Partiyası REAL və NİDA arasında birgə əməkdaşlıq sazişinin bağlanmasıdır.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 322 (5680) 4 dekabr 2013



# 1 sentyabr 1 aprel günü kimi-istefa xəbərləri...

## Prezidentin keçirmədiyi müşavirədə Artur Rasizadə istefaya göndərilərkən o, Nazirlər Kabinetinin iclasını keçirirmiş, icra başçılarının yeni təyinatları ilə bağlı xəbərlər də gündəmi zəbt etdi...

**Sentyabrın 1-də ölkənin elektron KİV-lərində bir-birindən ilginc iddialar yayılıb. Əvvəl prezident İlham Əliyevin hökumətin təcili iclasını keçirdiyi barədə xəbər verilib. Xəbərdə iddia olunurdu ki, prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin təcili iclası keçirilir. Hökumətdəki məlumatlı mənbələrə istinadən verilən xəbərlərdə prezidentin hökumət üzvləri ilə ölkədəki iqtisadi vəziyyəti müzakirə etdiyi bildirilirdi. Hətta iclasda maliyyə naziri Samir Şərifovun, iqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin və digər hökumət üzvlərinin məruzə ilə çıxış edəcəyi deyilirdi.**

Maraqlısı da bundan sonra baş verib. Müxtəlif mənbələrdən mediaya ötürülən məlumatlarda iddia olunurdu ki, hökumətin təcili iclasının çağırılması baş nazir Artur Rasizadənin istefaya getməsi ilə bağlıdır. Hətta Rasizadənin "gözlərindəki problemlə bağlı" istefa vermək istədiyi bildirilirdi.

"Yeni Müsavat" xəbəri dəqiqləşdirmək üçün Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli ilə danışmağa cəhd edib. Müxbirimizə deyilib ki, A.Əli hazırda iclasdadır və sonra əlaqə saxlasın. Amma mətbuat xidmətinin hansı iclasda olduğu deyilməyib.

Yalnız günün sonuna yaxın məlum olub ki, müşavirə prezidentin deyil, "istefaya göndərilən" baş nazir Artur Rasizadənin sədrliyi ilə keçirilib. Toplantıda Nazirlər Kabinetində 2016-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, həmçinin Azərbaycan Respublikasının 2016-cı il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

İclası giriş sözü ilə açan baş nazir bildirib ki, gələn ilin dövlət büdcəsi layihəsi prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkədə aparılan iqtisadi siyasətin nəticəsində əldə olunmuş uğurlar və müsbət inkişaf templəri, həmçinin son dövrlər dünyada gedən qlobal maliyyə və iqtisadi proseslərdə müşahidə olunan dəyişkənliklər nəzərə alınmaqla tərtib edilib. Layihənin hazırlanmasında dövlət büdcəsinin sosialyönümlü olması əsas götürülərək, respublika əhalisinin maddi rifahının daim yaxşılaşdırılması, ölkəmizin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, qeyri-neft sektorunun inkişafına dəstək kimi mühüm amillərə xüsusi diqqət yetirilib.

Sonra maliyyə naziri Samir Şərifov və iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev gündəlikdə duran məsələlərə dair məruzə ilə çıxış ediblər.

Büdcə layihəsi ətrafında aparılan geniş müzakirələrin yekununda "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, büdcə zərfinə daxil olan



Artur Rasizadə



Zakir Fərəcov



Eldar Əzizov

sənədlər toplusunun prezidentinə təqdim edilməsi barədə qərar qəbul edilib.

***

Diqqətçəkən budur ki, gün ərzində saytlar müxtəlif təyinatlar haqda da məlumatlar yayılıb. Məsələn, bildirilib ki, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtın icra başçısı təyin olunub. Sumqayıtın hazırkı icra başçısı Eldar Əzizov vəzifəsindən azad edilib və bəzi məlumatlara görə, o da Bakının Nizami rayonuna başçı təyin edilib. Musavat.com-in əməkdaşının Abşeron RİH-dən aldığı məlumata görə, Z.Fərəcovun yeni vəzifəyə təyin olunması barədə xəbər onlarda da var, ancaq başçı işdə olmadığından hər hansı bir təsdiqedici informasiyaya malik deyillər. Sayt əməkdaşı Z.Fərəcovun mobil telefonuna zəng etsə də, məlum olub ki, onun telefon bağlıdır.

Günün sonunda "Yeni Müsavat" hakimiyyət yaxın bir mənbə Z.Fərəcovun Sumqayıta icra başçısı təyin edildiyi barədə yayılan xəbərlərin gerçəyi əks etdirdiyini söyləyib.

Ümumilikdə isə "Bilik günü" kimi tarixə düşən 1 sentyabrı bu dəfə ilginc şayiələrinə nəzərən aprelə də bənzətmək olardı...

❑ **"Yeni Müsavat"**

# Antiböhran təklifləri dəstəklənir - iqtisadiyyat qurtula bilər...

## **Vüqar Bayramov:** "Bir neçə iqtisadi sektorun dəstəklənməsi Azərbaycanda qısa zamanda neftdən asılılığın aradan qaldırılmasına imkan verə bilər"



Vüqar Bayramov

**Dünya bazarında neftin qiymətinin kəskin düşməsi Azərbaycan kimi neftdən asılı olan ölkələr üçün ciddi təhlükə yaradır. Ekspertlər bildirirlər ki, artıq 2016-cı ilin dövlət büdcəsini neftin qiymətinə uyğun şəkildə tənzimləmək mümkün olmayacaq. Həmçinin bildirilir ki, hökumət 2009-cu ildən Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün ciddi addımlar atmağa başlayıb. İndi də bu addımların ciddiləşməsinə ehtiyac var. Yəni əsas çıxış yollarından biri Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə edərək tranzit daşımaçılıqdan əldə ediləcək gəlirdir. Neftdən asılı olmayan ikinci mühüm model isə ölkənin kənd təsərrüfatının inkişafıdır.**

Ekspertlər bu iki çıxış yolunun ciddi düşünülməli məsələ olduğunu vurğulayırlar. **İqtisadçı ekspert Vüqar Bayramov** da bildirir ki, ölkə üçün prioritet hesab ediləcək bir neçə sahəni inkişaf etdirməklə neftdən asılılıqdan qurtulmaq mümkündür.

Onun sözlərinə görə, rəhbərlik etdiyi İqtisadi və Sosial İnkişaf Mərkəzi bir müddət əvvəl bununla bağlı geniş tədqiqat aparıblar.

"Azərbaycanın qeyri-neft sektorunda müqayisəli üstünlüyə malik olan sektorların müəyyənləşməsi və dəstəklənməsi ilə bağlı tədqiqatımız olub. Konkret istiqamətlər müəyyənləşdirmişik. Bizim təklif etdiyimiz model də göstərir ki, Azərbaycanda yükdaşıma və nəqliyyat qeyri-neft sektorunun prioritet istiqamətlərindən biridir. Ona görə ki, Azərbaycanın coğrafi mövqeyi buna imkan verir. Yəni Azərbaycan yükdaşıma və nəqliyyat vasitəsilə ölkə olaraq xeyli gəlir əldə edə bilər. "İpək yolu", eyni zamanda, "Bakı-Tiflis-Qars" dəmiryol xəttinin inşasının başa çatması, eləcə də Rusiya ilə İranın Azərbaycan vasitəsi ilə coğrafi baxımdan birləşməsi imkan verir ki, Azərbaycan yükdaşımalarda ciddi şəkildə gəlir əldə edə bilsin. Eləcə də nəzərə alsaq ki, digər antiböhran tədbirləri də var. Hava limanının istifadəsi də gəlir əldə edilməsinə imkan verir. Ələt portunun tikilməsi də Azərbaycana imkan verəcək ki, yükdaşımalarını kifayət qədər genişləndirə bilsin. O baxımdan, təbii ki, yükdaşıma prioritetdir. Bunun qeyri-neft sektorunda payının artırılması istiqamətləri var".

Ekspert həmçinin, aqrar sektorla bağlı gözləntilərdən də danışıb: "Aqrar sektor da Azərbaycan üçün prioritet olmaqla yanaşı, eyni zamanda, ərzaq təhlükəsizliyi və ərzaq təminatı baxımından vacibdir. Nəzərə alsaq ki, Azərbaycan məhsulları Rusiya bazarında satıla bilir, o baxımdan aqrar sektorun da dəstəklənməsi olduqca vacibdir. Aqrar sektor digər sektorlardan fərqi ondan ibarətdir ki, aqrar sektor dövlətdən subsidiya alır və dövlətdən subsidiya aldığı üçün həmin sektor ixrac qabiliyyəti çox olsa belə, onun xüsusən ölkəyə daxil etdiyi valyutanın həcmi nisbətən az olur. Aqrar sektor daha çox ərzaq təhlükəsizliyi baxımından, o cümlədən istehlak bazarında qiymətlərin tənzimlənməsi baxımından vacibdir. Amma ixrac qabiliyyəti olsa belə, aqrar sektorun xərcinin bir hissəsinin dövlət tərəfindən qarşılanması və bu sektorun xüsusən dövlət gəlirlərinin artmasında rolu böyükdür. Yerli bazarın qorunması, yerli istehsal məhsullarının bazara çıxarılması, aqrar sektorla bağlı əhəmiyyətli məqamdır. Digər tərəfdən, aqrar sektorla yanaşı, yeyinti sənayesi kifayət qədər üstünlüyə malikdir və prioritet sektor olmalıdır. Söhbət ondan gedir ki, məsələn, pomidor istehsal olunur. Həm də xammal kimi deyil, həm də turşu və digər məhsullar istehsal edilməklə dünya bazarına çıxarıla bilər. Bu da imkan verər ki, Azərbaycan pomidor istehsalını inkişaf etdirməklə nəinki qonşu ölkələrdə, eyni zamanda, Avropa bazarına çıxış əldə edə bilər. Yaxın Şərqə Azərbaycan həm qida məhsulları, həm də içməli su ilə bağlı ixracatını qura bilər. Bu baxımdan, yeyinti, yüngül sənayenin belə ixrac potensialı var. Həmçinin turizmin inkişafı da vacibdir ki, ölkəyə valyuta gətirən sektorlardan biridir. O baxımdan, əslində bu sektorların dəstəklənməsi Azərbaycanda qısa zamanda neftdən asılılığın aradan qaldırılmasına imkan verə bilər. Bu halda neftin dünya bazarında qiymətinin necə dəyişməsinin ölkə iqtisadiyyatı üçün heç bir əhəmiyyəti olmayacaq".

Qeyd edək ki, bəzi ekspertlər Azərbaycanın kredit götürmək limitinin olduğunu və maliyyə böhranının yaşanmayacağını deyirlər. Amma kredit verilməsi şərtlərinin bir sıra fəsadları da var ki, bunun ən bariz nümunəsi Yunanıstandır. Bu səbəbdən də rəsmi Bakının Dünya Bankından və ya ayrı-ayrı dövlətlərdən kredit götürəcəyi indilikdə real görünmür.

❑ **Röya RƏFİYEVA**




# "Azdrama" ətrafında qalmaqal böyüyür

## Direktor İsrafilovun uzaqlaşdırılması ilə bağlı prezidentə müraciət edildi; nazirlik isə onun vəzifə müddətini uzatdı...

**Nəhayət, "Azdrama"nın kollektivi ayağa qalxaraq direktor İsrafil İsrafilovla bağlı prezidentdən kömək istəyib. Lent.az-ın məlumatına görə, Akademik Milli Dram Teatrın bir qrup tanınmış aktyoru son vaxtlar teatrda yaranan xoşagəlməz vəziyyətlə bağlı ölkə başçısına müraciət ünvanlayıb.**

Müraciətə imza atanlar arasında xalq artistləri Ramiz Məlik, Rafael Dadaşov, Nurəddin Mehdixanlı, İlham Əsgərov, Firəngiz Mütəllimova, Zemfira Məmmədova, Rafiq Əzimov, əməkdar artistlər Sənubər İskəndərova, Mehriban Xanlarova da var.

**Müraciətdə direktor İsrafil İsrafilov haqda sərt tənqidi fikirlər yer alıb. Aktyorlar kollektiv daxilində baş verən parçalanma, konflikt və qalmaqalların əsas səbəbkarının İsrafil İsrafilov olduğunu dəfələrlə qeyd ediblər:** ""Parçala, hökm sür" siyasətini ustalıqla həyata keçirən İsrafil İsrafilov kollektivi parçalayıb üz-üzə qoydu. Zərərli daxili konfliktlər yarandı. Dünənki dostlar bir-birinin düşməninə çevrildi. Yaradıcılığa sərf olunacaq vaxt və enerji mənasız, daxili sözlü savaşlardan əsl fiziki güc tələb edən savaşlara keçdi... Tam məsuliyyətlə deyirik ki, İsrafil İsrafilov direktoru olduğu Azərbaycan Akademik Milli Dram Teatrının kollektivini param-parça edərək bir-birinə düşmən edib və daha böyük fəsadların baş verməməsi naminə bu prosesin dayandırılması lazımdır. Hörmətli cənab Prezident, biz aşağıda imza edənlər, Sizdən çox xahiş edirik ki, bu məsələyə müdaxilə edəsiniz".

*****

Avqustun 31-də isə Azərpaşa Nemətov mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin əmrinə uyğun olaraq Akademik Milli Dram Teatrın yeni təsis olunmuş bədii rəhbəri-baş rejissor vəzifəsinə təyin edilib. Bununla əlaqədar olaraq müxtəlif fikirlər söylənilib. Bəziləri yeni təyinatı teatrın fəaliyyəti üçün uğurlu, bəziləri isə uğursuz hesab edib.

Xatırladaq ki, A.Nemətov eyni zamanda Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədridir. Ötən il "Azdrama"nın kollektivi etiraz olaraq ittifaqın qurultayını boykot etmişdi. Aktyorlar A.Nemətovun ittifaq sədri kimi 20 il ərzində Akademik Milli Dram Teatra təşrif buyurmamasından narazılıq etmişdilər.

**Bəs görəsən, yeni baş-rejissor öz gəlişi ilə teatrdakı gərginliyi səngidə biləcəkmi? Bu barədə "Yeni Müsavat"a danışan Azərpaşa Nemətov bundan sonra teatr daxilində hər şeyin yaxşı olacağına ümid etdiyini dedi:** "Bu gün ilk iş günümdür. Buna görə də teatr daxilində baş verənlər barəsində hər hansı fikir söyləyə bilməyəcəm. Kollektivlə daha yaxından tanış olub, baş rejissor kimi fəaliyyətimə başlayacam. Ümidvaram ki, hər şey yaxşı olacaq".

**"Azdrama" ətrafında baş verən yeni təfərrüatlarla bağlı teatrın mətbuat katibi Elçin Cəfərovla əlaqə saxladıq. Teatr rəsmisi prezidentə ünvanlanan müraciətdən xəbərdar olduğunu, lakin bu barədə danışmaq istəmədiyini dedi:** "Hazırda məzuniyyətdəyəm, buna görə hər hansı məsələyə rəy bildirməyim qanuni baxımdan doğru olmazdı. Yeni mövsüm başlayan kimi İ. İsrafilov bütün bu məsələlər barəsində özü danışıb aydınlıq gətirəcək, müsahibələr verəcək".

**Lakin E.Cəfərov onu da qeyd etdi ki, nazirlik yeni baş rejissor təyin etməsinin ardınca direktor İ.İsrafilovun vəzifə müddətinin uzadılması ilə bağlı müqaviləsini yeniləyib:** "Yeni növbəti mövsümdə İsrafil İsrafilov yenidən direktor vəzifəsində çalışacaq". **O, təzə baş rejissorun gəlişi ilə teatrda daha yaxşı ab-hava yaranacağını, aktyorlar arasındakı narazılıqlara son qoyulacağını bildirib:** "Şəxsən mənim Azərpaşa Nemətova çox böyük hörmətim var. İnanıram ki, onun gəlişi "Azdrama"ya çox şey verəcək, bəzi xoşagəlməz məsələlər müəyyən qədər səngiyəcək. Xüsusilə qeyd edim ki, son vaxtlar teatrımızda səhnələşdirilən bir sıra tamaşalar məhz onun adı ilə bağlıdır. Buna görə də əminliklə deyə bilərəm ki, yaxın vaxtlarda teatrın fəaliyyətində daha yaxşı yaradıcılıq işləri gözlənilir".


İsrafil İsrafilov

**Prezidentə ünvanlanan müraciətə imza atan bir neçə xalq artisti ilə də əlaqə saxladıq. Ramiz Məlik imza atdığı müraciəti təkzib edən fikirlər söylədi:** "Biz aktyorlar bu müraciəti İsrafil İsrafilovun teatrdan uzaqlaşdırılması üçün etmədik. Bizim əsas məqsədimiz budur ki, teatrın vəziyyəti yenidən yaxşılaşsın. Teatrımızda 30-40 il, hətta 50 ildir fəaliyyət göstərən aktyorlar var. Onlar da qəbul edə bilməzdilər ki, teatrımız bu vəziyyətədə davam etsin. Əsas narazılığımız da "YUĞ" teatrını bizim teatra bağlamaqları oldu. Bu, arzuedilməz bir fakt idi və biz də öz narazılığımı bildirdik. Çox sevindik ki, teatrımızın yeni baş rejissoru Azərpaşa Nemətovdur. Onun ilk addımlarından bu günədək olan bütün fəaliyyəti ilə tanışam. İnanıram ki, o, teatrın düşdüyü bu pis vəziyyəti aradan qaldıra biləcək, yalnız bizim də ona kömək etmək şərti ilə. Biz aktyorlar ona əlimizdən gəldiyi qədər kömək edəcəyik. Teatrı tənzimləyən həmişə bədii rəhbər, baş rejissor olub. İsrafil müəllim də bizə bildirib ki, o artıq yalnız inzibati işlərlə məşğul olacaq, biz də ona hər cür yardım göstərəcəyik. Ümumiyyətlə, İsrafil müəllim teatrı sevən, öz işini yaxşı bilən şəxsdir".

**Nurəddin Mehdixanlı isə müraciətdə yazılanlarla tamamilə razılaşdığını dedi:** "Bütün fikirlərimizi orda bildirmişdik. "Azdrama"nın vəziyyəti son üç ildə çox ciddi şəkildə pisləşdi. Buna görə də yeni mövsümə yaxın kollektivlə birgə qəti qərara gəlib bir müraciət ünvanladıq. Fərz edin ki, orda yazılan bütün qeydlər kollektivlə birgə eyni zamanda fərdi olaraq mənim də fikrimdir. Bir sözlə, qərarımız budur ki, direktor teatrdan uzaqlaşdırılsın, çünki o, teatrı heç cürə idarə edə bilmir".

**"Bəs teatr rəhbərliyində kimi görmək istərdiniz" sualımızı xalq artisti bu cür cavablandırdı:** "Nazirlik kimi məsləhət bilsə, onu. Əsas odur ki, teatrımız yenidən əvvəlki nüfuzuna geri dönə bilsin".

❑ **Xalidə GƏRAY**

# Füzuli Ələkbərovu Cüdo Federasiyandan niyə uzaqlaşdırmırlar?

## Cüdoçular sabiq nazirin qurumdan kənarlaşdırılmasını istəyir

**Cüdo üzrə gənclərdən ibarət millimizin üzvləri onlara saygısız münasibətdən narazıdırlar. Onlar problemlə bağlı prezident İlham Əliyevə müraciət ediblər. Lakin hələ ki, cüdoçular Azərbaycan Cüdo Federasiyasının prezidenti Füzuli Ələkbərovun "tilsimindən" qurtula bilmirlər.**

Cüdonu Azərbaycanda ən çox inkişaf etmiş, maraq göstərilən idman növlərindən biri hesab etmək olar. Elnur Məmmədlinin 2008-ci ildə olimpiya çempionu olması bu idman növünə marağı daha da artırmışdı. Amma bu uğurun davamı gəlmədi. 2012-ci il London Yay Olimpiya Oyunlarında cüdoçularımız heç bir nəticə əldə edə bilmədi.

Cüdoda sonuncu ən yaxşı nəticə isə Rio-de-Janeyroda keçirilən böyüklər arasında dünya çempionatında oldu. Elxan Məmmədov dünya çempionu olaraq adını tarixə yazdırdı.

Azərbaycanda cüdonun qara günləri isə Füzuli Ələkbərovun nazir vəzifəsindən uzaqlaşdırılmasından sonra başladı. Federasiyanın saytı da sonuncu dəfə 2013-cü ilin sonunda yenilənib. Cüdo ilə bağlı ən son xəbər 2013-cü ilin noyabrın 23-də yerləşdirilib.

Son iki ildə cüdoçulara soyuq münasibət göstərilməsi ilə bağlı dəfələrlə mətbuatda məlumatlar yer alıb, idmançıların narazılıqları gündəmə gəlib. Bu il Azərbaycanda keçirilən I Avropa Oyunları isə cüdoçuların durumu da dəqiqliyi ilə göründü. Avropa Oyunlarında çıxış edən 18 cüdoçumuzdan yalnız biri medal qazana bildi. Bu nəticədən sonra idmançıların verdiyi açıqlamalar isə federasiyada olan vəziyyətin hansı həddə çatdığını göstərdi.

İlk olaraq cüdoçu xanımlar Füzuli Ələkbərova qarşı üsyana qalxdılar. Cüdoçu xanımlardan Kifayət Qasımova, Aişə Qurbanlı, Xanım Hüseynova, Nərgiz İbrahimova Avropa Oyunlarında medalsız qalmalarının səbəbini cüdo millisində baş verən özbaşınalıqlar və diqqətsizliklə bağlı olduğunu açıqladılar.

Daha sonra cüdoçu kişilər aksiya ilə gündəmə gəldilər. Avqustun 17-də aksiya keçirən gənc cüdoçular qayğısızlıqdan şikayətləndilər. Onlar beynəlxalq yarışlara aparılmadıqlarını, heç bir maddi dəstək görmədiklərindən şikayətləndilər. Avqustun 31-də isə cüdoçular prezidentə müraciət edərək kömək istədilər.

Qarşıdan gələn Avropa və dünya çempionatlarına hazırlaşa bilməyən cüdoçular 2016-cı ildə Rio-De-Janeyroda keçiriləcək olimpiya oyunlarından da kənarda qalmaq istəmirlər. Əgər onlara dəstək göstərilməsə, bu ay keçiriləcək Avropa çempionatında iştirak edə bilməyəcəklər.

Narazı cüdoçular "Yeni Müsavat"a danışarkən bildirdilər ki, onlara Avropa çempionatında iştirak etmək üçün 1900 manat pul lazımdır. Federasiyadan isə cüdoçulara bildirilib ki, onlara heç bir maddi yardım göstərilməyəcək. İdmançıların da heç birinin bu yarışda öz hesabına iştirak etmək imkanı yoxdur. Əgər sentyabrın 7-dən maliyyə məsələsi həll olunmasa, cüdoçular Avropa çempionatından kənarda qalacaqlar.


Füzuli Ələkbərov

Son məlumat isə bundan ibarətdir ki, federasiya artıq fəaliyyətini dayandırıb. İdmançılar federasiyanın binasına getsə də, orada onları qəbul edəcək kimsə tapılmayıb.

Cüdoçularla söhbətimizdə onu da öyrəndik ki, Füzuli Ələkbərov sonuncu dəfə cüdoçularla 3 il bundan əvvəl görüşüb. Diqqətsizlikdən ciddi nailiyyətləri olan gənc cüdoçuların bəziləri artıq idmandan uzaqlaşıb. İmkanı olanlar isə öz hesablarına ayrı-ayrı zallarda məşq edirlər.

Cüdo üzrə gənclərdən ibarət millimizin baş məşqçisi Fərhad Məmmədov və köməkçisi Elçin İsmayılov gənclərlə maraqlansa da, bu diqqət onlara uğur qazanmağa imkan vermir.

Maraqlıdır ki, cüdoçuları və bu sahəni çıxılmaz duruma salan Füzuli Ələkbərov Federasiya rəhbərliyindən kənarlaşdırılmır. İdmançılar hesab edir ki, quruma idmanı və idmançıları sevən biri rəhbər gətirilsə cüdo inkişaf edər.

❑ **İlkin MURADOV**



# Həkimi qandallatmağa nail olan vəkil danışdı

## Səməd Vəkilov: “Söhbət cəmiyyətdə sosial ədalətin təmin olunmasından gedir”

**Bakı Slavyan Universitetinin mərhum dekanı, tənqidçi Elnarə Tofiqqızının ölümü ilə bağlı açılan cinayət işində hökmdən verilən apelyasiya şikayətləri üzrə məhkəmə prosesi başa çatıb. Avqustun 31-də keçirilən son məhkəmə iclasında təqsirləndirilən şəxs qismində iştirak edən həkim Firuz İbrahimov barəsində 2 il yarım müddətinə azadlıqdan məhrumetmə cəzası seçilib. Həkim məhkəmə zalında həbs edilib.**

Məhkəmədən bir gün öncə E.Tofiqqızının həyat yoldaşı, jurnalist Anar Niftəliyev sosial şəbəkələrdə həyəcan dolu xəbər yaymışdı. O bildirmişdi ki, F.İbrahimov hər vasitəsilə məhkəmədən yayınıb, cinayət işi üzrə irəli sürülmüş ittiham maddələrinə xitam verdirmək istəyir. Xəbərin ardınca məlum olmuşdu ki, həkim xəstəlik adı ilə 1 saylı Şəhər Xəstəxanasına yerləşib. Qanunvericiliyə əsasən, bu ayın 20-də ölüm hadisənin iki il tamam olacaqdı. Verilmiş şikayətə əsasən isə həkim barəsində Nəsimi Rayon Məhkəməsi cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkməklə, iki il həbs cəzası seçmişdi.

**İttiham tərəfinin vəkili olan Səməd Vəkilov “Yeni Müsavat”a açıqlamasında çıxarılmış məhkəmə hökmündən razı qaldıqlarını bildirdi:** “Məhkəmə hökmü kifayət qədər ədalətlidir. Məhkəmə zamanı təqsirləndirilən şəxs xəstəxanada olması ilə bağlı arayış təqdim etmişdi. Anar Niftəliyevlə birlikdə xəstəxanaya getdik. Məsələni aydınlaşdırdıq. Bizə bildirdilər ki, Firuz İbrahimov hazırda reanimasiya şöbəsindədir. Biz onun məhkəmədən yayınmaq üçün plan qurduğunu yaxşı bilirdik. Anar Niftəliyev növbəti gün onu evində tapdı. Həmin vaxt yolda avtomobil qəzası baş verdi. Avtomobil qəzasının videosunu Anar müəllim axar.az saytına qoydu. Bundan sonra 1 saylı Şəhər Xəstəxanası daxili rejimi pozduğuna görə onu xəstəxanadan xaric etdi. O, məcburiyyət qarşısında qalıb, məhkəməyə gəlməli oldu. Ona qarşı 320.1 və 124.1 maddələri irəli sürülmüşdü. Ehtiyatsızlıqdan insan ölümünə səbəb olma və sənədlərin saxtalaşdırılması maddələri. Sənədlərin saxtalaşdırılması qəsdən törədilmiş cinayət idi. İki il cəza nəzərdə tutulurdu. Sentyabrın 20-də iki il müddət başa çatırdı. Məsuliyyətdən yayınmaq üçün həkim bütün variantları işə saldı. Amma Anar müəllimin şəxsən məsələyə bu tərzdə müdaxilə etməsi təqsirləndirilən şəxsin işini pozdu. Əlbəttə ki, ədalətli qərar saymaq olar. Burada söhbət təkcə Firuz İbrahimovun cəzalandırılmasından getmir. Son illərdə kütləvi şəkildə artan həkim səhlənkarlığı nəticəsində baş verən cinayətlərin qarşısını almaq məqsədi daşıyır. Söhbət cəmiyyətdə sosial ədalətin təmin olunmasından gedir”.


Səməd Vəkilov

**Vəkil həkim səhlənkarlığına qarşı cəmiyyətin etiraz etməsinin vacibliyini də vurğuladı:** “Həkim səhlənkarlığına qarşı cəmiyyət etiraz etməlidir. Bu mənada hökmü yüksək qiymətləndirirəm. 2 il yarım cəza veriblər. Bunu az olmaq kimi hallandıra bilmərik. Çünki əvvəlcə məntəqə tipli cəza seçilmişdi. Amma indi ümumi rejimli cəza təyin olunub. Məhkəmə zalında qoluna qandal taxılaraq həbs edildi. Narazı qalmış olsaydıq, kasasiya şikayəti verəcəkdik. Bizim belə bir niyyətimiz yoxdur. Ona görə ki, hökm bizi qane edir. Çox güman ki, qarşı tərəf kassasiya şikayəti verəcək. Məhkəmə hökmünün ləğv olunmasına bir lüzum yoxdur”.

Qeyd edək ki, 1977-ci il təvəllüdlü E. Tofiqqızı ötən il sentyabrın 20-də Nəsimi rayonunda yerləşən “Medi Sina” Tibb Mərkəzində süd vəzi kanalının əməliyyatı zamanı vəfat edib. Məhkəmə-Tibbi Ekspertizasının rəyinə əsasən müəyyən edilib ki, E. Tofiqqızı üzərində anestezioloq düzgün anesteziya əməliyyatı aparmayıb. Nəticədə xəstənin ağciyərinin funksiyası pozulub və o, tənəffüs çatışmazlığından vəfat edib. Ötən ilin sentyabrın 25-də Nəsimi Rayon Prokurorluğunda faktla bağlı cinayət işi açılıb. Cinayət işinin materiallarına əsasən E. Tofiqqızının üzərində aparılan cərrahiyyə əməliyyatında iştirak edən anestezioloq Firuz İbrahimov Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) və 320.1-ci (hüquq verən və ya vəzifədən azad edən sənədi saxtalaşdırma) maddələrinə əsasən təqsirləndirilib.

❑ **Cavanşir ABBASLI**

# General-polkovnikin qohumu vətəndaşı bankla üz-üzə qoyub

## Rüfət Ramazanov: “Himayə olunan İbrahim Axundova heç kim heç nə edə

**“Hesab edirəm ki, bütün qanunlar mənim kimiköməksiz, kimsəsiz və kasıb adamlara tətbiq olunur” - Xəzər rayonu, Binə qəsəbəsi, Əfəndiyev küçəsi ev 66 ünvanında yaşayan Rüfət Ramazanov redaksiyamıza ünvanladığı müraciətində belə yazır. Baş prokuror Zakir Qaralov və daxili işlər naziri Ramil Usubovdan kömək istəyən R.Ramazanov yazır ki, özünü Xüsusi Mühafizə İdarəsinin rəisi general-polkovnik Vaqif Axundovun yaxın qohumu kimi təqdim edən İbrahim Əkrəm oğlu Axundov onu aldadıb.**




“Salyan şəhəri, T.Xəlilbəyli küçəsi ev 170 ünvanında qeydiyyatda olan İbrahim Axundovu mənimlə yaxın dostu olan Orxan Əliyev tanış edib. İbrahim Axundov Bakı qeydiyyatında olduğumu bildiyindən xahiş etmişdi ki, özünə ”Kapital Bank" ASC vasitəsilə kreditə aldığı “Range Rover” markalı maşını adıma rəsmiləşdirsin. Beləliklə, maşının texniki pasportu mənim adıma rəsmiləşdirildi, maşın bankda girovda qaldı. 48 saylı notariat kontorunda qara rəngli, 2003-cü il buraxılışlı “Range Rover” markalı, Az 90 FO 989 minik maşınını idarə etmək üçün İbrahim Axundova etibarnamə verdim. 3 ay sonra isə bankdan zəng edib dedilər ki, krediti niyə ödəmirsiniz. Belə olduqda bankın “Rabitə” filialına gedib oranın rəhbərliyindən tələb etdim ki, maşını geri alsınlar. Dedilər ki, narahat olma, maşın İbrahim Axundovdadır, heç bir problem yoxdur. İ.Axundova verdiyim etibarnamənin ləğv olunması üçün ərizə ilə müraciət etdim. Oradan Daxili işlər Nazirliyi Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat və İmtahanlar Şöbəsinə və İbrahim Axundova məktublar göndərərək 13 avqust 2010-cu il tarixli 7E-22378 reystirdə qeyd olunan etibarnamə ləğv olunduğu haqda məktub göndərdilər".

**Rüfət Ramazanov yazır ki, etibarnamənin ləğvi İbrahim Axundova nəqliyyat vasitəsini digər şəxsə satmasına maneçilik törətməyib:** “Mülkiyyətimdə olan ”Range Rover" markalı maşını saxtakarlıqla başqa şəxsə saxta etibarnamə ilə satdı. Ancaq nə özü, nə də satdığı şəxs maşının banka olan borcunu ödəmədilər. Bu gün də maşının texniki pasportu məndədir. Amma həmin şəxslər maşınımı özlərində saxlamaqda davam edirlər. General Axundovun qohumluğu altında himayə olunan İbrahim Axundova heç kim heç nə edə bilmir. Belə ki, sonuncunun barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci -dələduzluq maddəsi ilə cinayət işi başlanıb. Bakı Şəhər Baş Polis İdarəsinin istintaq şöbəsində guya araşdırma gedir. Ancaq Xəzər dənizində hətta balıqlarında yerini bilən polisimiz general Axundovun qohumudur deyə İbrahim Axundovu polisə gətirə bilmirlər. İbrahim Axundov adıma yazdırdığı “Range Rover” markalı minik maşınını Kənan Quliyevə, sonuncusu da avtosalon işlədən Elxan İmanova satıb. Elxan İmanov isə başqa dövlət qeydiyyat nömrəsi taxaraq maşınını işlədir. Bütün qanunlar mənim kimi köməksiz, kimsəsiz və kasıb adamlara tətbiq olunur. Baş prokuror və daxili işlər nazirindən xahiş edirəm ki, maşın saxlanılaraq banka təhvil verilsin, İbrahim Axundov barəsində qanuni ölçü götürülsün".

❑ **E.HÜSEYNOV**



# Qızılın qiymətinin artması Azərbaycana nə qazandırır

## Vüqar Bayramov: “Bu, Azərbaycan iqtisadiyyatına iki istiqamətdə təsir göstərir”

**Dünya bazarında qızılın qiyməti durmadan artır. Amerika fond bazarında Dow Jones indeksi 0,69 faiz - 16 528,03 bəndədək, NASDAQ 1,07 faiz-4 776,51 bəndədək, S&P 500 0,84 faiz 1 972,18 bəndədək azalıb. “APA-Economics”in məlumatına görə, Avropa fond bazarlarında FTSE 100 indeksi 0,90 faiz - 6 247,94 bəndədək artıb, Fransa CAC-40-ı 0,47 faiz - 4 652,95 bəndədək artıb, Almaniya DAX-ı isə 0,38 faiz - 10 259,46 bəndədək azalıb. ABŞ fond bazarında əsas indekslərin azalmasına investorların ABŞ-da faiz dərəcələrinin artırılacağından ehtiyatlanması ilə izah olunur. COMEX-də sonuncu hərraclarda qızılın bir unsiyasının qiyməti 8,80 dollar artaraq 1 141,30 dollara, gümüş isə 0,06 dollar artaraq 14,65 dollara satılıb.**

Qeyd edək ki, Azərbaycan da qızıl hasil edən ölkələrdəndir və zəngin qızıl ehtiyatları var. Azərbaycan 2009-cu ilin iyulunda qızılın sənaye hasilatına başlayıb. 2010-cu ildə qızıl hasilatının həcmi 1,9 ton təşkil edib və bu həcm emala göndərilib. Bundan əlavə, 2010-cu ilin noyabrında gümüş hasilatına başlanılıb. Noyabr-dekabr aylarında gümüş hasilatı 1,5 ton təşkil edib. Statistik məlumatlara görə, 2009-cu ildə 333 kq qızıl hasil edilib. Azərbaycanın qızıl yataqlarının işlənməsi ilə məşğul olan “Azerbaijan International Mining Company” (AMIC) 2009-cu ilin mayında Gədəbəydə qızıl emalı zavodunu istismara verib. AMIC-i “Gədəbəy” yatağı da daxil olmaqla, Azərbaycanın 6 qızıl yatağının işlənməsi layihəsinin operatoru olan “Anglo-Asian Mining PLC” şirkəti yaradıb. 2014-cü ildə isə Azərbaycanda 1 684,3 kiloqram qızıl və 231,9 kiloqram gümüş hasil olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə qızıl hasilatı 11,9 faiz artıb, gümüş hasilatı isə 62,2 faiz azalıb. Aşkarlanan yeni qızıl yataqları isə əsasən Kiçik Qafqazın və Böyük Qafqazın şimal hissəsində yerləşir. Qeyd edək ki, Azərbaycanda qızıl və gümüş 1997-ci il avqustun 21-də imzalanmış PSA (Hasilatın Pay Bölgüsü) tipli müqavilə çərçivəsində hasil olunur. Müqavilə 6 yatağın - Naxçıvanda 1, Gədəbəydə 2, hazırda erməni işğalı altında olan Kəlbəcər və Zəngilanda 3 yatağın işlənməsini nəzərdə tutur. Müqavilədə Azərbaycanın payı 51 faiz, Böyük Britaniyanın “Anglo Asian Mining Plc.” şirkətinin payı 49 faiz təşkil edir.

“Gədəbəy” yatağından ilk qızıl hasilatına isə 2009-cu ildə başlanılıb.

Maraqlıdır, hazırda qızılın dünya bazarında qiymətinin gün keçdikcə artması Azərbaycana nə qazandıracaq?

**İqtisadçı ekspert Vüqar Bayramov qızılın qiymətinin artmasının Azərbaycan iqtisadiyyatına iki istiqamətdə təsir edəcəyini bildirdi:** “Qızılın qiymətində dəyişikliklər müşahidə edilir. Xüsusən də son bir ayda qızılın dünya bazarında qiyməti dörd faizə qədər artıb. Bu da o deməkdir ki, hazırda dünya bazarında qızılın bir qramı 32 dollardır. Qızılın qiymətinin yüksəlməsi Azərbaycan iqtisadiyyatına iki istiqamətdə təsir göstərir. Birinci istiqamət odur ki, dövlət neft fondunun gəlirlərini artırır. Çünki dövlət neft fondunun 30 tona yaxın qızıl ehtiyatları var. Buna görə də qızılın qiymətinin artması dövlət neft fondunun, eləcə də Azərbaycan dövlətinin aktivlərinə müsbət təsir göstərir. İkinci istiqamət isə odur ki, Azərbaycan həm qızıl istehsal edən, həm də ixrac edən bir ölkədir. Dünya bazarında da qızılın qiymətinin artması Azərbaycana imkan verir ki, qızıl ixracatından əldə etdiyi gəliri artıra bilsin. Bunu da Azərbaycan iqtisadiyyatı üçün müsbət hal kimi qiymətləndirirlər. Əgər gələcəkdə də qızılın qiymətinin artımı davam edərsə, bu, Azərbaycan dövlət rezervlərinin həcminin artmasına gətirib çıxara bilər. Avtomatik olaraq dövlət neft fondunun rezervlərinin həcminin artmasına səbəb olacaq. Azərbaycan qızılın dünya bazarındakı qiymətindəki artımlarda maraqlı olan ölkələrdən biridir”.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015

# 70 faiz endirimdə olan geyimlərin maya dəyəri nə qədərdir?

## Əvvəllər 90 manata olan köynəyi indi 29.99 AZN-ə gördükdə sevinməyə bilmirsən, amma...










**Manatın devalvasiyası və yay mövsümü bitdiyi üçün Bakıdakı brend geyim mağazaları endirimlərə başlayıblar. Bu endirimlərin nə qədər real olub-olmamağından danışmayacağıq. Bəllidir ki, əksər mağazalar endirimləri yalnız bir qrup geyimə aid ediblər ki, onların da mağazanın anbarında qalmaqdan özün həqiqi mənasında rəngi qaçıb.**

Məsələ burasındadır ki, böyük faizlərlə (70-80 faiz) endirimdə olan geyimlərdən mağazaların qazancı nədir. Yəni bu geyimlərin maya dəyəri nə qədərdir?

Elə bu suala cavab tapmaq üçün yol aldıq Bakıdakı ticarət mərkəzlərinə. İlk olaraq yollandığımız "Park Bulvar" da yerləşən demək olar ki, bütün geyim mağazalarının qapılarının üzərində "70 faiz endirim" elanının şahidi olduq.

Mağazaların üzərinə yazılan endirimlə bağlı vitrinlərin




qarşısında insan axını kəsilmirdi. Alıcıların üzlərindən heyrət dolu baxışları, sevinc yağan gözləri görməmək mümkün deyildi. Alıcı Dilbər Cəfərova ilə söhbətimiz zamanı o bildirdi ki, əvvəllər 90 manata olan köynəyi indi 29.99 AZN-ə gördükdə sevinməyə bilməz. Doğrudan da qiymətin 90-dan 20-yə düşməsi böyük endirimdir. Ancaq burada bir nüans da var-qiymətlərin 1 qəpik endirilməsi. Demək olar ki, bu üsuldan əksər mağazalar istifadə edərək, məhsulun qiymətini bir "onluq" ucuz göstərirlər.

"Park Bulvar"da gördüyümüz hallara digər iri ticarət mərkəzlərində də şahid olduq.

Bəs bu məhsulların maya dəyəri nə qədərdir?

**Əksər satıcılar 70 faiz qiymət endirimini bu cür izah etdilər:** "Mağazada bəzi geyimlər var ki, onlardan bir ölçü qalıb. Yaxud da mövsüm dəyişdiyi üçün onları yenidən anbarlara deyil, maya dəyərindən aşağı qiymətlə vitrinlərə düzürük".

Satıcılar iddia edirlər ki, onlar yalnız bir ölçüsü qalan geyimlərin qiymətlərini endiriblər. Lakin biz bu halın şahidi olmadıq.

**Ölkə mağazalarında endirimdə olan geyimlərin maya dəyərini satıcılardan öyrənə bilməyincə, xaricdə təhsil alan və tez-tez ora səfər edən həmyerlilərimizdən fikir almaq qərarına gəldik. Məsələ ilə bağlı ABŞ-da təhsil alan bir gənc bunları dedi:** "2009-cu ildə ABŞ-da yaşayanda bir qrup gənc Nyu-Yorku ziyarət edəcəklərini, mənimlə də görüşmək istədiklərini bildirdilər. Gənclərlə görüşəndə məlum oldu ki, onların səfərinin əsas məqsədi özləri və qohumları üçün geyim alış-verişi olub. O zaman onların bu izahı mənə təəccüblü gəlirdi ki, eyni brendin Bakıda da mağazaları olduğu halda, insanlar nəyə görə Amerikaya geyim almaq üçün səfər edirlər? Sonradan dəfələrlə özüm şahidi oldum ki, qiymətlər arasında çox böyük uçurum var. Məsələn, 1 ABŞ dolları 78 qəpik olan dövrdə Bakıda 70 AZN-ə satılan eyni marka köynək ABŞ-da 18-19 dollara idi. Bu isə bir köynəyin qiymətində təxminən 70 manat fərq deməkdir. Bu fərq kostyumlarda, ayaqqabı, aksessuar və paltarlarda daha böyük olur. İnsanlar bu fərqə həm ABŞ-ı gəzə, həm də özləri istədikləri geyimləri ala bilirdilər. Üstəlik, nəzərə almaq lazımdır ki, ABŞ-dakı orta əmək haqqı Azərbaycandakı orta əmək haqqından dəfələrlə yüksəkdir və orta təbəqə üçün nəzərdə tutulmuş bir çox brendlərin Bakıdakı qiymətləri dünyanın digər ölkələrində eyni brendlərin mağazalarında 7-8 dəfə baha qiymətə satılırdı".

İqtisadçılar isə hesab edirlər ki, mağazalarda hazırda ölkədə geyim mağazalarında endirimlərin olmasının bir neçə səbəbi var. Belə ki, ölkədə əhalinin alıcılıq səviyyəsinin aşağı düşməsi mağazaları kəskin endirimlərə getməyə məcbur edir. Eyni zamanda mağazalar endirimdən öncə daha yüksək qiymətə malların bir hissəsini satdıqlarına görə daha sonra ucuz satarkən ortalama qiyməti normal hala gəlir.

Yuxarıda aldığımız fikirlərdən belə aydın oldu ki, hazırda 10 AZN-ə satılan geyimlərin maya dəyəri təxminən 8.5 AZN-dir.

❑ Əli RAİS

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Əlaqə üçün: 070 335 90 15**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Bakıda "VAZ" benzindaşıyan maşına çırpıldı:iki ölü



**Bakıda ağır yol-nəqliyyat hadisəsi baş verib. APA-nın məlumatına görə, qəza Zabrat-Maştağa yolunda qeydə alınıb. "VAZ-2172" markalı minik maşını Maştağa qəsəbəsi istiqamətində hərəkətdə olarkən qarşıda gedən və "Azpetrol" şirkətinə məxsus MAN markalı benzindaşıyan avtomobilə arxadan çırpılıb.**

Qəza nəticəsində minik maşınının sürücüsü, 40 yaşlı Ağayev Elman Şirin oğlu və sərnişin, 38 yaşlı Quliyev Rövşən Əhmədağa oğlu hadisə yerində ölüblər, avtomobildəki digər sərnişinlər - 42 yaşlı Əzizov Mirvaleh Mirsaleh oğlu və 33 yaşlı Şərifov Əli Arif oğlu ağır xəsarətlər alıblar. Hər iki yaralı 3 saylı Şəhər Kliniki Xəstəxanasına çatdırılıb.

Faktla bağlı Sabunçu Rayon Polis İdarəsində araşdırma aparılır.

İlkin ehtimala görə, qəzaya VAZ-2172 markalı avtomobilin sürücüsünün sürət həddini aşması səbəb olub. Qeyd edək ki, MAN markalı yük maşını hadisə baş verən vaxt Zabrat-Maştağa yolunda geriyə dönüş edirmiş.

YENİ MÜSAVAT
N 193 (6221) 2 sentyabr 2015

# Məşhurların ölümü- fərqli, əsrarəngiz, səs-küylü...

## Biri çox yediyi üçün dünyasını dəyişib, o biri intihar edib, bir başqası ayaqyolunda son nəfəsini verib



**Məşhurların, dahilərin, dünya şöhrətli insanların həyatının hər fraqmenti olduğu kimi, ölümləri, ölüm hekayələri də maraq cəlb edir. Və bir çox adama elə gəlir ki, sadaladıqlarımızın ölümü sıradan, adi ölüm kimi ola bilməz. Onlar mütləq qeyri-adi bir qəzanın, bir hekayənin qurbanı ola bilərlər...**

Onlardan bəzilərinin hekayələrini "Yeni Müsavat" sizin üçün təqdim edir.

### Ölüm onu ayaqyolunda haqlayıb...

**Başlayaq Elvis Preslidən.** Məşhur rok ulduzu ayaq yolunda dünyasını dəyişib. Rok-n-rollun kralı tualetdə qusanda vəfat edib. Həkimlərin dediyinə görə, "kral"ın ölüm səbəbi köklük və dərmanlardan yaranan infarktdır.



**Almaniyanın lideri, qəddarlığı ilə tarixdə ad çıxarmış Hitlerin ölümü ilə bağlı əfsanələr isə xeyli çoxdur. Birinci versiya:** Hitler günorta yeməyindən sonra həyat yoldaşı Eva ilə otağlarına gedir. Və hər şey başladığı kimi bitir. Hitler və həyat yoldaşı ölürlər.

Araşdırmaya görə, iki versiya mövcuddur. Birinci versiyada Hitlerin əvvəl Evaya atəş açdığı, sonra da özünü eyni silahla öldürdüyü bildirilir.

İkinci versiyada isə Hitlerin və Evanın zəhər içərək öldüyü bildirilir.

Daha sonra isə Hitlerin köməkçisi ikisinin də üstünə benzin tökərək yandırır. Bunu ondan Hitler tələb etmişdi.

Hitlerin və Evanın yanmış cəsədləri ölümlərindən 4 gün sonra tapılır. Qəribə olsa da, cəsədləri heç kim o günə qədər görməyib.

Lakin sovet hökuməti Hitlerin ölümünə inanmırdı. Buna görə də bu iki şəxsin ölümü dəfələrlə tədqiqatlar vasitəsilə yoxlanılır. Lakin bu günə qədər mövcud olan suallar öz cavabını tapmayıb.

Hitlerin ölümü tarixdə sirr olaraq qalmaqdadır. Son dramatik akt 1945-ci il aprel ayının 29-da səhər saat 3-4 radələrində baş verir. Hitler tez-tez hədiyyə verməkdən zövq aldığı katibələrin hamısına kiçik ampulada zəhər paylayır və ən sevimli katibəsi İnqanın qulağını nəvazişlə çəkib "bu gün üçün sizə bundan başqa hədiyyəm qalmayıb" deyir. *(Sonralar İnqa öz xatirələrində yazacaqdı: "Zəhəri alanda bir elə narahatlıq keçirmədim. Ancaq elə ki, otaq tamam boşaldı, tək qaldım, vahimə məni basdı, həyatdan getmək istəmirdim. "Axı, mənim onlarla nə əlaqəm var" dedim və zəhər dolu ampulanı divara çırpıb bunkerin çıxışına doğru yönəldim, dəli kimi yüyürməyə başladım...").*

### Xəstəliklər, zəhərlənmələr, sui-qəsdlər

Mustafa Kamal Atatürkün ölümü isə serroz xəstəliyinə görə baş verib. Dolmabaxçada müalicə aldığı xəstə yatağında idi. 1938-ci ilin avqust ayında xəstəlik xeyli şiddətlənmiş, qarnında çoxlu miqdarda su toplanmışdı. Təbii ki, qarnında toplanan su alınmışdı. Amma Atatürkün son anlarına qədər ağrıları və qarnında su toplanması davam edib.

10 noyabr 1938-ci ildə, saat 09.05-də Mustafa Kamal birdən gözlərini açıb. Başını sərt bir hərəkətlə sağ tərəfə çevirdikdən sonra öncəki duruma gəlib və son nəfəsini verib.

**Turqut Özal infarkt keçirib, xəstəxanaya göndəriləndə həyat yoldaşı Səmra Özal o anlar haqda belə danışırdı:** "Özal o gün də hər zaman etdiyi kimi səhər yeməyindən əvvəl qaçış bandına çıxmışdı. Saat 10.30 radələriydi. Yanında ancaq mən var idim. Bir neçə dəqiqəlik hərəkətdən sonra üzü anidən qaraldı və yerə düşdü".

Özal xəstəxanada dünyasını dəyişib. Onun ölümü indiki günə qədər şübhəli, mübhəm qalıb, hər zaman müzakirə mövzusu olub. Öldü, ya öldürüldü? Və 19 il sonra ortaya çıxan sənədlər onun zəhərlənərək öldürüldüyünü ortaya çıxarıb.

### Bıçaqlanıb, köləsi tərəfindən qətlə yetirilib və...

**Yasir Ərəfat:** 20 oktyabr 2004-cü ildə mədə ağrısı ilə qıvranmağa başlayıb. Mədə xəstəliyi artınca Fransaya müalicə üçün gedib. 9 noyabr 2004-cü ildə isə beyin qanaması keçirib, 11 noyabrda dünyasını dəyişib. Onun da ölümündən sonra məzarı açılıb. Çünki zəhərləndiyinə dair xeyli şübhələr vardı. Ölümündən 8 il sonra qəbri açıldı və araşdırma aparılmağa başlandı.

**Muammer Qəddafi** Liviyanı 42 il boyunca idarə edib. Ancaq ərəb baharı adı ilə xalqın azadlıq arayışı ayaqlanmağa başlandı, NATO hərəkətə keçdi. Fransa Liviyanı bombaladı. Qəddafinin konvoyuna NATO təyyarələri hücum etdi. Qəddafi qaçaq həyatı yaşayırdı. Onun bu qaçışının sonu ölümlə nöqtələndi. Üsyançılar onu gizləndiyi yerdə tapdı. Uzun zaman işgəncələrə məruz qaldı və küçə ortasında üsyançılar tərəfindən linç edilərək öldürüldü.

**Karl Marks** bütün Avropa tarixindəki ən məşhur alman yəhudi ailəsinin bir üzvü olub. 1849-cu ildən etibarən ağır bir yoxsulluq yaşayan Marks "Kapital"ın böyük bir hissəsini də elə ayaq üstə yazmaq məcburiyyətində qalıb. 1881-ci ilin dekabr ayında həyat yoldaşı Cenninin ölümündən sonra Marksın səhhətində problem yaranıb, son 15 ayını isə xəstəliklə keçirib. Daha çox bronxit və ağciyər xəstəliklərindən əziyyət çəkən Marks 14 mart 1883-cü ildə həyatını itirib.

**Sezarın** ölümünə gəlincə, onun da həyatı o qədər parlaq olmayıb. İqtidarı təkbaşına sahiblənib və diktatorluğunu elan edib. Bir gün bir qrup senator onun üzərinə gəlib. Bağırmaq istəsə də, səsi çıxmayıb. Dili tutulmuşdu. Bunlar etdiyi son hərəkətlər idi. Bədənindən 35 bıçaq zərbəsi alan Sezar ayaqlar altında inildəyirdi.

**Neronun** ölümü də olduqca ibrətamiz idi. O, son 10 ildə imperatorluğun mütləq hakimi oldu. Amma daha sonra xəzinəni boşaltdı, bütün sərvətlərə əl qoydu və vergiləri artırdı. Kəndli qiyafəsi geyinərək, ölkədən qaçmaq istəsə də, köləsi tərəfindən yaxalandı. Köləsinə etdiyi bütün şirnikləndirici təkliflərə baxmayaraq, razılıq ala bilmədi və sonuncu onu parça-parça etdi.

### İntihar, narkotik və toxluqdan ölüm

**İsveç padşahı Adolf Fredrik** 12 fevral 1771-ci ildə dünyasını dəyişib. Onun ölüm səbəbi isə tragikomik olub. Hədsiz toxluqdan. Yəni padşah axşam yeməyində normadan artıq yeyib.



**Müğənni və bəstəkar Murad Nəsirovun** ölümü isə oxuculara yaxşı məlumdur - intihar. 37 yaşlı müğənni özünü pəncərədən atıb. Hadisə baş verən gün o, özünü qeyri-adekvat aparıb. Gün ərzində otaqda daim var-gəl edib, kiməsə zəng edib, gah oturub, gah pəncərəyə tərəf gedib. Axşam saat 10-a yaxınsa uşaqlarını oyadıb, öz kostyum paltarını geyinib və pəncərədən özünü atmaq üçün bir neçə dəfə cəhd göstərib. Və nəhayət, cəhdləri nəticə verib, intihar baş tutub.



**Müğənni Uitni Hyuston** isə 11 fevral 2012-ci ildə Beverli Hilsdə yerləşən «Beverly Hilton» hotelində dünyasını dəyişib. Onu vanna otağında xalası Meri Cons aşkarlayıb. Onu reanimasiyada əvvəlki halına qaytarmağa çalışsalar da, bu, mümkün olmayıb. Ölüm Amerika vaxtı ilə 15.55-də baş tutub. Polis ölümün zorakılıq xarakterli olması ilə bağlı versiyanı dərhal rədd edib. Hyuston 54-cü "Qremmi" mükafatlarının paylanması mərasimindən öncə dünyasını dəyişib. Məhz bu mərasim ona həsr olunmuşdu.

❑ **SEVİNC**




# Nazir 12 gündə Bakıda 20 min dollar xərcləyib

**Kuk adalarının maliyyə naziri Mark Braunun xərcləri yoxlanan zaman məlum olub ki, nazir ən çox Azərbaycanda pul xərcləyib. Virtualaz.org saytı Qərb KİV-lərinə istinadən xəbər verir ki, Mark Braun 11 ay ərzindəki səfərləri zamanı üst-üstə 38 min dollar vəsait xərcləyib. "Yeni Zelandiya" radiosunun yaydığı xəbərə görə, nazir həmin pulların çoxunu Azərbaycanda xərcləyib.**

Mark Braun Azərbaycanda bu ilin mayında səfərdə olub. O, Bakıya Asiya İnkişaf Bankının nümayəndə heyətinin üzvü kimi gəlmişdi. Bakıda keçirdiyi 12 gün ada-dövlətin nazirinə 20 min dollara başa gəlib.

# YENİ MÜSAVAT

## Son səhifə

*N 193 (6221) 2 sentyabr 2015*





**QOÇ** - Sağlamlığınızla bağlı bir neçə problemlə rastlaşma ehtimalınız var. Atmosferin bu çirkli çağında səhhətinizi xüsusilə toz-torpaqdan qorumalısınız. Digər işlərinizi təxirə də sala bilərsiniz.

**BUĞA** - İşgüzar əlaqələri dərinləşdirmək üçün birə-beş qat əzmkarlıq göstərməlisiniz. Qarşılıqlı anlaşma sizin üçün vacib şərtdir. Şəxsi həyatınızda mühüm rol oynayan adamlarla ünsiyyəti qoruyun.

**ƏKİZLƏR** - Maddi problemləriniz qabardığından bütün sahələrdə daxili süstlük sizi tərk etmir. Lakin usanmağa dəyməz. Ən azı ona görə ki, saat 14-dən sonra bu yönümdə uğurlu məqamlar yaşayacaqsınız.

**XƏRÇƏNG** - Xoş ovqat qazanmaq üçün bu təqvimdən maksimum istifadə etməlisiniz. Bu istiqamətdə Göy qübbəsi də sizə yardımçı olacaq. Sevindirici xəbərlər, maraqlı məclislər yolunuzu gözləyir.

**ŞİR** - Yeri gəldi-gəlmədi, özünüzü tərif etməkdən vaz keçin. Bu, nüfuzunuza ciddi xələl gətirə bilər. Çalışın ki, ünsiyyətdə olduqlarınıza mərhəmət göstərəsiniz. Səhhətinizə fikir verin.

**QIZ** - Öz bürcünüzün enerjili vaxtı olduğundan bu gözəl ayın ən düşərli bir gününü yaşayacaqsınız. Ələlxüsus da saat 12-17 arası maraqlı sövdələşmələrin iştirakçısına çevrilə bilərsiniz.

**TƏRƏZİ** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda xoşagəlməzliklər baş qaldıra bilər. Sonrakı müddətdə isə nəzərdə tutduğunuz planları reallaşdırmaqda çətinlik çəkməyəcəksiniz.

**ƏQRƏB** - Hər mənada düşərli gündür. İstər qarşılıqlı münasibətlərdə, istərsə də şəxsi büdcənizin dirçəlməsində uğura yiyələnəcəksiniz. Axşam isə doğmalarınıza baş çəkməyiniz yaxşı olar.

**OXATAN** - Həmkarlarınızla, qonşu və qohumlarınızla aranızda soyuqluq gözlənilir. Bu kimi xoşagəlməzlikləri dəf etmək üçün təmkin nümayiş etdirməlisiniz. Nahardan sonra müqəddəs yerlərə baş çəkin.

**OĞLAQ** - Bu təqvimdən başlayaraq ürəkaçan dövranınız start götürəcək. Daha heç bir gərginliklə qarşılaşmayacaqsınız. Ulduzlar nahardan sonra büdcənizdə artım olacağını da bildirir.

**SUTÖKƏN** - Sevinc dolu hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, büdcənizdə ciddi artım da olsun. Amma yersiz qərarlar çıxarmaq fikrindən uzaq olun. Həmkarlarınızla dil tapmağa çalışın.

**BALIQLAR** - Saat 16-ya qədər əsəblərinizi qoruya bilsəniz, sonrakı müddəti rahat şəraitdə başa vuracaqsınız. Ümumiyyətlə, yaxşı olar ki, bu gün qeyri-ənənəvi, riskli işlərdən uzaq olasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**



## Cizgi filmləri - xeyirli, yoxsa zərərli?

**Valideynlərə, pedaqoqlara, psixoloqlara tez-tez belə bir sual verilir: cizgi filmlərinin uşaqlara nə kimi təsiri var, hansı cizgi filmlərinə baxmaq daha yaxşıdır - yerli, yoxsa xarici, ümumiyyətlə, uşaqlar bu animasiya filmlərinə baxmalıdırlarmı?**

Əvvəlcə animasiya filmlərinin müsbət tərəfinə nəzər salaq. Bəzi cizgi filmləri uşaqlara tərbiyələndirici təsir göstərir, onlara bu və ya digər vəziyyətdə necə davranmağı öyrədir, dəcəllik edən və mübahisə edən, yoldaşları ilə yola getməyən uşaqların sonunun necə olmasını onlara izah edir. Sanki bununla uşaqları bir çox çətin vəziyyətlərdən qoruyur. Bununla onlar bir növ valideynlərə öz övladlarını yetişdirməkdə kömək edirlər.

Lakin məlumdur ki, bəzi cizgi filmləri uşaqlarda aqressiya yaradır, fikirlərini tamam başqa istiqamətə dəyişir. Bəs bu vəziyyətin çıxış yolu necə olmalıdır? Uşaqlara cizgi filmlərinə baxmağı qadağan etməkmi? Bu zaman onun dünyagörüşü daha zəif olacaq. Daim uşağın izlədiyi cizgi filmlərinə nəzarət etmək necə?

Demək olar ki, bütün cizgi filmlərində qəddarlıq və ya xeyirxahlıq nümunəsi var. Bunun üçün də valideynlər filmin üslubundan asılı olmayaraq çalışmalıdırlar ki, onu övladı ilə birgə izləsinlər. Suallara cavab verməyə çalışmaq lazımdır. Cizgi filmi bitdikdən sonra onu mütləq müzakirə etmək lazımdır. Uşaq bu filmdən nəyi anladı? Nə üçün baş qəhrəman məhz o cür hərəkət etdi? Mənfi qəhrəman düzgün hərəkət etmişdimi? O davranışları həyatda təkrar etsək, necə olar və s. Bəlkə də bu üsulla uşaqlara daha çox şey öyrədə bilərik...

# 25 dəqiqə yeri, 7 il yaşa

**Almaniyada Saarland Universitetinin alimlərinin apardıqları yeni araşdırmalar nəticəsində məlum olub ki, 25 dəqiqə surətli yerimək insan ömrünü təxminən 7 il artırır. Araşdırma zamanı siqaret çəkməyən, lakin davamlı idman etməyən 30-60 yaşlı şəxslər üzərində araşdırma aparan mütəxəssislər onlara 6 ay davamlı şəkildə idman etdiriblər. Təcrübənin sonunda onlarda qanın keyfiyyətinin xeyli yaxşılaşdığı müəyyən edilib. İdmanın köməyi ilə adamların ömrünün 3-7 il artacağı güman edilir.**



**Araşdırmanın nəticələri Avropa Kardioloqlar Cəmiyyətinin illik toplantısında açıqlanıb.**

# Obama siçan və soxulcan yeyacək

**Amerika prezidenti Barak Obama məşhur macərapərəst, həyatda qalmaq üzrə mütəxəssis və televiziya aparıcısı Bear Grylls ilə birgə Alyaskanın insan ayağı dəyməmiş bölgələrindən birində təbiətə qarşı mübarizə apararaq, üç gün keçirəcək. NBC-nin xəbərinə görə, iqlim dəyişikliyi konfransında iştirak etmək üçün Alyaskaya gedən Obama Bear Grylss ilə tanış olub və ondan buzlaqda yaşamağın şərtlərini öyrənməyə qərar verib. ABŞ prezidenti üç günlük təcrübəsi zamanı iqlim dəyişikliyinin buzlaqlar üzərindəki təsirini də öyrənmiş olacaq. Ağ Ev başçısının təcrübəsi NBC telekanalı tərəfindən izlənəcək.**

Məlumat üçün bildirək ki, Bear Gyrlls daha əvvəl də Kate Winslet, Ed Helms, Kate Hudson, Channing Tatum ve Michele Rodriguez kimi Hollivud ulduzları ilə birlikdə təbiətə qarşı mübarizə aparıb. Michele Radriguez macərası zamanı hətta siçan yemək zorunda qalmışdı. Oskar mükafatı alan Kate Winslet isə dağda olarkən günorta yeməyində soxulcan yemişdi.





## Saç boyası bu hala gətirdi

**İngiltərədə yaşayan Ann-Marie adlı qadın həyatının ən böyük peşmanlığını saçını boyadıqdan sonra yaşayıb. Gənc qadının sözlərinə görə, 30 yaşını qeyd etməzdən əvvəl saçındakı ağları gizlətmək üçün saçını boyayıb. Bundan sonra başında qaşıntı və yanma hiss edən qadın səhər oyandığı zaman əri və oğlu onu tanımayıb. Üzü və göz qapaqları şişən qadın xəstəxanaya gedib. Uzun müddət müalicə edildikdən sonra üzündəki şişlər azalıb. Qadının hazırda səhhəti yaxşı olsa da, çox qorxduğunu deyib.**

Maraqlıdır ki, Ann-Marie uzun illərdir eyni boyadan istifadə edir. Lakin heç vaxt belə problemlə üzləşməyib. Gənc qadın boya firmasını məhkəməyə verəcəyini deyib. Lakin heç vaxt saçını boyamayacaq.

## Yolda tapdığı pula lotereya adlı, milyoner oldu...



**Amerikanın Kaliforniya ştatında yaşayan Hubert Tang adlı bir barmen bir gecə küçədən tapdığı 20 dollarla lotereya alıb. Lotereyanın nəticələri açıqlandığı zaman 1 milyon dollar qazandığını öyrənib. "Xəbəri aldığımda şoka düşdüm. Yanımdakı dostumdan bunun gerçək olub olmadığını soruşdum" deyən Tang pul qazandığını öyrəndiyi zaman şoka düşüb. Son 10 ildə ilk dəfə lotereya bileti alan barmen qazandığı pulla nə edəcəyinə qərar vermədiyini deyib.**

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300